# XOMEYNİ MƏKTƏBİ

Özəl Nömrə | June | 2024



ALİ DİN RƏHBƏR AYƏTULLAH İMAM XAMƏNEİ HƏZRƏTLƏRİNİN BAŞSAĞLIĞI

İMAM XOMEYNİNİN GÖRÜŞÜNDƏ

MƏNƏVİ DƏYƏRLƏR VƏ MÜASİR İNSANIN PROBLEMİ

NAMAZDA RİAYƏT EDİLMƏSİ LAZIMLI OLAN NORMALAR İMAM XOMEYNİ (RƏH)

# ŞANLI İMAM (RƏH)

| | | | | |
|---|---|---|---|---|
| Lebanon 7000 LL | S.Africa 26.00R | Germany 4.50€ | Kenya 250KSH | Spain 4.50€ |
| Morocco 36.00 DH | France 4.50€ | Turkey 5.50YTL | Qatar 20.00QR | Mexico 65.00MEX$ |
| UAE 21.00DH | Italy 4.50€ | America 3.00$ | Tunisia 3.70TD | Kuwait 2.000KD |



# SÜLH VƏ DOSTLUQ DİPLOMASİYASI ŞƏHİDLƏRİ

4
ALİ DİNİ RƏHBƏR AYƏTULLAH İMAM XAMƏNEİ HƏZRƏTLƏRİNİN BAŞSAĞLIĞI


16
MƏNƏVİ DƏYƏRLƏR VƏ MÜASİR İNSANIN PROBLEMİ


26
İSLAM ÜMMƏTİNİN BİRLİYİ YOLUNDA


32
NAMAZDA RİAYƏT EDİLMƏSİ LAZIMLI OLAN NORMALAR


38
MÜBARƏK HƏMD SURƏSİNİN TƏFSİRİ


44
SADİQ VƏD ƏMƏLIYYATI


48
ŞANLI İMAM(RƏH)




# XOMEYNİ MƏKTƏBİ

Özəl Nömrə | June | 2024

**Jurnalın Adı:**
XOMEYNİ MƏKTƏBİ
Beynalxalq Əlhuda Nəşriyyatı
**Məsul Müdir:**
Mehdi Fəyyazı
**Baş Redaktor:**
Rəsul İsmailzadə Duzal
**Redaksiya Heyəti:**
İbad Məmizadə, Mehdi Hüseyni, Arif İsmailzadə Duzal, Lütfullah Təqizadə, Hafiz Abiyev, K.Hadi, ilham İsmailzadə Duzal
**İcra Müdiri:**
Məryəm Həmzəlu
**Texniki Redaktor və Dizayner:**
Omid Behzadi
**Telefon:** +9821-88934302
+9821-88934303
**Fəks:** +9821-88902725
alhodapub@gmail.com
**mailto:** alhodapub@gmail.com
www.alhoda.ir
http://www.alhoda.ir
www.itfjournals.com






# ALİ DİNİ RƏHBƏR AYƏTULLAH İMAM XAMƏNEI HƏZRƏTLƏRİNİN BAŞSAĞLIĞI

İslam İnqilabının Rəhbərinin prezident və möhtərəm müşayiət edən heyətin şəhadəti münasibətilə başsağlığı pəyamı vermişdir.

Həzrət Ayətullah Xamenei İran İslam Respublikasının Prezidenti Ayətullah Seyyid İbrahim Rəisinin, , Xarici İşlər Naziri- Əmir Əbdullahiyan, Rəhbərin Şərqi Azərbaycan vilayətindəki nümayəndəsi və Təbrizin imam cüməsi Ayətullah Ali-Haşimin və habelə Şərqi Azərbaycan vilayətinin valisi- Dr.Rəhmətinin və onların əziz yoldaşları təyyarə qəzası nəticəsində şəhadəti ilə bağlı başsağlığı veriblər.



**İslam İnqilabının Rəhbərinin başsağlığı mesajının mətni:**

**Allahın adı ilə**

**Biz Allah üçünük və Ona tərəf qayıdırıq**

Mücahid alim, yetərincə zəhmətkeş prezident Xadimur-Riza, Hoccətülislam vəl- müslimin Cənab Hacı Seyyid İbrahim Rəisi və onun əziz müşayiət heyəti(rizvanullah əleyhim) ilə birlikdə şəhadətinin acı xəbərini böyük kədər və təəssüf hissi ilə aldım.

Bu kədərli hadisə bir xidmət zamanı baş Verdi. Əslində bu nəcib və fədakar şəxsiyyətin ömrü, istər qısa prezidentlik dövründə, istərsə də ondan əvvəlki bütün məsuliyyət dövrü tamamilə xalqa, vətənə, İslam dininə xidmətdə dayanmadan çalışmaqla keçib.

“Əziz Rəisi yorulma bilmirdi. Baxmayaraq ki,bu acı hadisədə İran milləti özünün sadiq, səmimi və dəyərli bir şəxsiyyətlərini və prezidentini itirdi”. Onun üçün Allahın razılığına dəlalət edən xalqın rifahı və razılığı hər şeydən üstün idi. Buna görə də bəzi bədxahların nankorluq və rişxəndlərindən





əziyyət çəkməsi onu inıişaf və tərəqqi uğrunda gecə-gündüz işləməsinə mane olmurdu.

Bu ağır hadisədə Təbrizin məhbub və etibarlı cümə imamı Hoccətülislam vəl- müslimin Cənab Ali-Haşim, çalışqan və mübariz xarici işlər naziri cənab Əmir Əbdullahiyan, Şərqi Azərbaycanın inqilabçı və dindar valisi cənab Malik Rəhməti və digər uçuş dəstəsi və heyət üzvləri kimi görkəmli şəxsiyyətlər allahın rəhmətinə qovuşdular., və digər səhabələr də ilahi rəhmətə qoşuldular.

Bu münasibətə görə beş günlük matəm elan edir və əziz İran xalqına başsağlığı verirəm. Konstitusiyanın 131-ci maddəsinə əsasən, cənab Müxbir icra hakimiyyətini idarə etmək vəzifəsindədir və ən çoxu əlli gün ərzində qanunvericilik və məhkəmə qurumularının rəhbərləri ilə yeni prezidentin seçilməsi ilə bağlı lazımlı işləri yerinə yetirməlidirlər.

Sonda cənab Rəisinin əziz anası, onun möhtərəm həyat yoldaşına, Prezidentin digər adamlarına və səfər heyətinin hörmətli ailələrinə, xüsusən də Cənab Ali-Haşimın əziz atasına dərin hüznlə başsağlığı verirəm vəhamısına allah-taaladan səbr və dünyalarını dəyişənlərə rəhmət diləyirəm.











# MASUL MUDİRDƏN

Mehdi Fəyyazi



Fəthul-Futuh İmam Xomeyni (Allah ona rəhmət etsin) İranda və dünyada Bəsici deyilən insanlar yetişdirir, Bəsiciləri elə təvbiyə etdi ki, sanki Allahın göylərdə mələkləri, yerdə isə Bəsiciləri ilahinin buyruöuna qulluq edirlər.. İmam Xomeyni Allahın səmimi ordusu olan və mənşəyi insanlar, iman, səy və şəxsi təqva olan Bəsici zuhura gətirdi.

İmam həmin bəsiclərlə rasional, məşhur, interaktiv, balanslı və inqilabi İslamı kitablar və ailələr içindən hökumət mətninə köçürdü ki, cəmiyyətin tərəqqisi sürətli və mənəvi və bəşəri tərəqqi istiqamətində olsun.

O, Amerika saxta İslamının azğınlıqlarına qarşı dünyaya xalis Məhəmmədi İslamın şirinliyini təqdim etdi. İmam Xomeyni (r.ə) 25 illik mübarizə və əzmlə məzlum müsəlmanların və qeyri-müsəlmanların təkəbbürlülərə qarşı qlobal hərəkatına və dünya məzlumlarının müstəqillik, azadlıq və cümhuriyyətçilik hərəkatına rəhbərlik etdi və ümməti konseptuallaşdırdı və şəbəkə qurdu. -İmaməti ilk növbədə azad insanlarının qəlbində və düşüncələrində yaratdı.

Buna görə də dünyanı istismar edən və zalım dövlətlər İrana və müqavimət mehvəri ölkələrinə hər cür müharibə, sanksiyalar, vandalizm və təhrimlər tətbiq etməklə imam xomeyni yaradan mütərəqqi modelin sürətini, uğurunu və təbliğini dayandırmaq istədilər, lakin onların səyləri dəfələrlə uğursuz oldu.

İmam Xomeyni (r.a) haqqında daha çox məlumat əldə etmək üçün bu özəl sayımızda müəyyən miqdarda əlaqədar məqalələr vermişik.



# AYƏTULLAH XAMƏNEİ HƏZRƏTLƏRİNİN MÜHÜM ÇIXIŞI

TƏRCÜMƏ GRUPU

Bizdən sonrakı xalqlar da həmişə İmam Xomeyni(rəh) haqqında danışacaqlar. Bu belə də olmalıdır. "Çünki İmam Xomeyni İnqilabın simvoludur. Bu ölkə İnqilabın güclü motoru olmadan öz böyük arzu və məqsədlərinə çatmayacaq".

Ayətullah Xamenei həzrətləri çıxışında İmam Xomeyninin şəxsiyyətindən, onun keçdiyi mübarizə yolundan danışıb və qeyd edib ki, bu gün düşmənin planı İrana qarşı iqtisadi, psixoloji və əməldə təziqi artırmaqdır.

"Bu üç təzyiqin məqsədi İrana dominantlıq etməkdir. Necə ki, regionun bəzi bədbəxt və üzü qara ölkələrinə dominantlıq edirlər. İqtisadi təzyiq və sanksiyaların tətbiqi ilə ölkələrin bizimlə iqtisadi əməkdaşlığının qarşısını almaq, İran xalqını bezdirmək və İslam sistemini öz hegemonluqlarına boyun əydirməyə məcbur etmək istəyirlər. Amma onlar İran xalqını və sistemini tanımayıblar".

Ayətullah Xamenei İranın nüvə texnologiyası sahəsində əldə etdiyi nailiyyəti qürurverici, müxtəlif növ raket istehsalını və raket gücünü ölkənin təhlükəsizliyinin təzminatı adlandırıb. "Elə bu Tehran şəhəri bir gün düşmənin gecə-gündüz raket atəşinə tutulurdu. Evlər dağılırdı, insanlar öldürülürdü. Əhvaz və Dizful kimi digər şəhərlər də həmçinin. Bizim müdafiə gücümüz yox idi, məcbur idik ki, əlimizi büküb oturaq. Bu gün bizim gənclərimiz elə bir iş görüb ki, biz regionda raket sistemləri sahəsində ən güclü ölkəyə çevrilmişik. Düşmən bilir ki, bir raket atarsa, 10 raketlə cavab verəcəyik".

Ayətullah Xamenei Hərtərəfli Birgə Fəaliyyət Planı və onun ətrafında baş verənlər haqqında danışıb və qeyd edib ki, Avropanın bəzi ölkələrinin sözlərindən belə başa düşülür ki, onlar İran xalqının sanksiyalara dözməsini, nüvə fəaliyyətindən əl çəkməsini və məhdudiyyətlərin davam etdirilməsini istəyirlər. Mən bu dövlətlərə deyirəm, - "Sizin bu disturbed (səksəkəli) yuxunuz çin olmayacaq".

Ayətullah Xamenei qeyd edib ki, İran xalqı və dövləti, həm sanksiyanın olmasını, həm də "nüvə texnologiyasının həbsini" qəbul etməyəcək. Atom Enerji Təşkilatı borcludur ki, tez bir zamanda həlelik Hərtərəfli Birgə Fəaliyyət Planı çərçivəsində 190 min SWU (izotop ayırma qabiliyyəti) hazırlamaq üçün işlərə başlasın və prezidentin göstəriş verdiyi bəzi digər hazırlıqları isə sabahdan başlasın.

Ayətullah Xamemei, təxminən 4 dəqiqə ərzində ərəb dilində ərəb ölkələrindəki gənclərə xitab edib.

Ayətullah Xamenei gəncləri ölkələrinin müqəddəratını öz əllərinə almağa, ölkələrində istiqlaliyyət qurmağa, ölkə başçılarının sionist rejimlə dostluq münasibətlərini pozmağa, bütün işlərdə Allaha etimad edib səy göstərərək çalışmağa və düşmənlərin çoxluğundan qorxmamağa səsələyib.



# İMAM XOMEYNİ MƏKTƏBİ İMAM XAMƏNEİ

## İmam Xomeyninin (r.ə) siyasi, ictimai və ideoloji məktəbinin özəllikləri

İmam Xomeyni məktəbi mükəmməl və çoxaspektli bir məcmudur. İmamın yolunu qət edərkən bu aspektləri birgə, paralel surətdə diqqətdə saxlamaq və onlara əməl etmək lazımdır ki, bu yoldan sapınmayasan, xətaya yol verməyəsən.

İmam Xomeyni (r.ə) bu diyarın və İslam dünyasının tarixində misilsiz bir dəyişiklik edərək çürük və yanlış monarxiya rejimini devirdi, ilkin İslam dövründən sonra İslam dininə əsaslanan birinci dövlət və hökuməti quraraq Allah yolunda cihadın haqqını lazımınca əda etdi. Onun belə böyük dəyişikliklər etməsinə imkan yaradan məfkurə tövhidə söykənən bir dünyagörüşünə əsaslanırdı. O, öz bitkin və sistemli məfkurəsinə əsaslanaraq, İran və bütövlükdə bəşər cəmiyyətinin üzləşdiyi problemlər üçün həll yolları irəli sürür və xalqlar bu həll yollarının dəyərini dərk edirdilər. Elə buna görə də, İmam Xomeyni məktəbi dünya xalqları arasında genişləndi.

### İmam Xomeyninin (r.ə) siyasi məktəbi

İmam Xomeyninin (r.ə) siyasi məktəbinin iki başlıca xüsusiyyəti var: Birincisi İslam Respublikasının ruhunu, canını-qanını təşkil edən İslam şəriəti, ikincisi isə xalq hakimiyyəti və seçkilər yolu ilə işlərin xalqa həvalə edilməsidir.

İmam Xomeyni məktəbinə görə, İslam dövlətində bütün işlərdə, qanunvericilikdə, siyasətlərin müəyyən edilməsində, vəzifə təyinatları və vəzifədən kənarlaşdırmalarda, ictimai münasibətlərdə və digər məsələlərdə dövlətin həqiqət və mahiyyəti olaraq, İslam şəriətinə tam diqqət yetirilməlidir. Eyni zamanda, bu siyasi-mədəni sistemdə işlərin idarəçiliyi elə həmin şəriətdən qaynaqlanan xalq hakimiyyətinə əsaslanır və camaat birbaşa və ya dolayısı ilə bütün ölkə rəsmilərinin seçimində iştirak edir.

Məzluma kömək, zülmə qarşı mübarizə və zalımların ehtişamını açıq-açığına dağıtmaq İmam Xomeyni məktəbinin başlıca elementlərindən biridir.

Düşmənləri vaxtında tanıması, onlara qarşı tam sayıqlığı və mübarizliyi İmam Xomeyninin ağıl və müdrikliyinin daha bir təzahürüdür. O, bərəkətli həyatı boyunca düşmənlərin qarşısında daim dağ kimi möhkəm durdu.

Dahi İmam Xomeyni imperialist dövlətlər qarşısında qətiyyətli, sarsılmaz bir şəxsiyyət idi, eyni

zamanda, yoxsul və zəif təbəqənin qarşısında sevgi, emosionallıq, mehribanlıq və nəzakət mücəssəməsi kimi çıxış edirdi.

Odur ki, İmamın xarici siyasətinə nəzər saldıqda, görürük ki, o, beynəlxalq arenadakı quldur dövlətlər, imperialistlər qarşısında açıq-aşkar müxalif mövqe tutur, bu məsələdə heç kimi və heç nəyi nəzərə almırdı. Məhz buna görə də, İmam dünyanın soyğunçu, imperialist, hegemon dövlətləri ilə məzlumların qarşıdurmasında məzlumlarn cəbhəsində yer alırdı; bunu birbaşa, heç kimi və heç nəyi nəzərə almadan, çəkinmədən, açıq-aşkar deyirdi. O, bütün dünyadakı məzlumların ciddi tərəfdarı idi, imperiaslitlərlə heç cür barışığa getmək niyyətində deyildi. Amerikanın ünvanına deyilmiş “böyük şeytan” ifadəsi ilk dəfə İmamın işlətdiyi heyrətamiz bir bənzətmə idi. Bu ifadənin daşıdığı məna yükü və onun əməli dəyəri çox böyükdür. İnsan hansısa şəxsi, hansısa qurumu şeytan hesab edirsə, aydındır ki, ona qarşı davranışı, hiss və emosiyaları necə olmalıdır. İmam son günə qədər Amerikaya məhz bu hisslərlə yanaşdı. O, Amerika haqda “böyük şeytan” ifadəsini həm dildə işlədir, həm də buna bütün qəlbi ilə inanırdı.

## İmam Xomeyninin (r.ə) ideoloji məktəbi

İmam Xomeyninin (r.ə) ideoloji məktəbində öz əksini tapan birinci məsələ Həzrət Muhəmməd peyğəmbərin (s) yer üzünə gətirdiyi əsl İslamın təsbit, amerikasayağı İslamın isə inkar edilməsidir. İmam əsl İslamı amerikasayağı İslamla qarşı-qarşıya qoyurdu. Amerikasayağı İslam nədir? İstər bu dövrdə, istər İmamın yaşadığı dövrdə, istərsə də bütün dövrlərdə – bizim bildiyimiz qədər; ola bilsin ki, hələ gələcəkdə də belə olacaq – amerikasayağı İslamın yalnız iki qolu olub: biri sekulyar İslam, ikincisi isə mürtəce İslam. Elə buna görə də, İmam Xomeyni sekulyar təfəkkürə malik, yəni dini, cəmiyyəti, insanların sosial davranışlarını İslamdan ayrı görmək istəyən insanları dinə mürtəce yanaşmanın daşıyıcısı olan insanlara bərabər tutur, eyni sırada görürdü; dinə mürtəce yanaşma dedikdə, yeni fikirli insanların dərk edə bilmədiyi, yanlış əsaslara və fanatizmə söykənən gerilikçi yanaşma nəzərdə tutulur. İmam bunların hər ikisini həmişə birgə qeyd edirdi.

İmam Xomeyninin (r.ə) nəzərində əsl İslam zaman və məkanın tələblərinə uyğun, aydın yanaşma ilə, bəşər və İslam cəmiyyətinin hazırkı ehtiyaclarını, düşmənin istifadə etdiyi üsulları bilərək, teoloji mərkəzlərdə işlənib püxtələşmiş və oturuşmuş elmi metodlarla tədqiq olunaraq əldə edilmiş, Quran və sünnəyə əsaslanan İslamdır.

İmamın (r.ə) ideoloji məktəbində “saray axundları”nın və İŞİD-in İslamı elə İsrail və Amerikanın cinayətlərinə etinasız yanaşan, gözünü böyük dövlətlərə dikmiş İslamın tayıdır və bunların hər ikisi qəbuledilməzdir.

Bir sözlə, Dahi liderimiz İmam Xomeyni (r.ə) ilahi vədlərə və onların doğruluğuna həmişə inanır və bunun tam əksi olaraq, dünyanın imperialist güclərinin vədlərinə qəti surətdə etimad etmirdi.

İmamın bütün varlığında, qərarlarında və davranışlarında Allaha, xalqa və özünə inam sözün əsl mənasında əks olunurdu.

İmam Yaradana doğru mənəvi yüksəliş, zikr, Allah qarşısında tam itaətkarlıq və sitayiş əhli idi. O, Allaha sonsuz ümid və təvəkkül etsə də, daim rasionallığa, ağıl və tədbir əsasında davranmağa, yüz ölçüb, bir biçməyə böyük önəm verirdi. Eynilə mənəviyyat və rasionallıq kimi, ədalətə də dində və Quranda buyurulan formada riayət edirdi.

## İmam Xomeyninin (r.ə) ictimai məktəbi

İmam Xomeyninin (r.ə) ictimai məktəbinə gəldikdə, İmam ölkə müstəvisində yoxsul və zəif təbəqələrin himayə olunmasının ciddi tərəfdarı idi. O, iqtisadi bərabərsizliyi, zəngin insanların dəbdəbəli, aristokratik həyat sürməsini çox kəskin və barışmaz surətdə rədd edirdi. İmam bir yandan cəmiyyətdə yoxsulluğun kökünün kəsilməli olduğunu vurğulayır, digər tərəfdənsə rəsmilərə saray həyatına, dəbdəbəyə, aristokratik həyat tərzinə rəğbət bəsləmək xarakterindən uzaq durmalı olduqları barədə xəbərdarlıqlar edir, kasıb təbəqəyə yardımçı olmağa çağırırdı. İmam dönə-dönə deyirdi ki, məhz daxmalarda, yoxsulluq içində yaşayanlar çətinlik və problemlərdən heç bir narazılıq etmədən bu meydanları doldururlar. Halbuki maddi nemətlərdən daha çox yararlananlar çətinliklə qarşılaşdıqda, daha çox etiraz bildirirlər.

Bu böyük dərslər heç bir halda unudulmamalıdır! (Ali Rəhbər Ayətullah Xameneinin 4 İyun 2015-ci il çıxışından iqtibas.)



# İMAM XOMEYNİ İLƏ TANIŞLIQ

M.HÜSEYNİ

**Bismillahir-Pəhmanir-Rəhim**

Tarixdə böyük düşüncəyə sahib olan şəxslər barədə mühakimə

yürütmək çətin bir iş olduğu kimi, İmam Xomeyni(rəh) haqqında danışmaq da

bir o qədər çətindir. İmam Xomeyni(rəh) tarixdə elə bir dəyişiklik və inqilab

yaratdı ki, bu tarixin hərərkəti və irəliləyişi istiqamətində əsas rol oynadı.

O, nəinki özünü gündəlik yorucu məşğələlərdən qurtardı, hətta, cəmiyyəti

belə öz rəhbərliyi ilə yüksəltdi.

Bəşər maarifi və etiqadiyyatı tarixində böyük hərəkətlərin və əsərlərin mənşəyi olan



"İmam Xomeyni" kimi şəxslərin şəxsiyyətlərinin mükəmməlliyi, mürəkkəbliyi və o simanın işıltısı bəzilərinin gözlərini qamaşdıra bilər. Nəticədə onların vücudlarının əzəməti gizli qalıb icmalçıları, onların yaratdıqları dəyişikliklər barəsində səthi və üzdənkeçmə tədqiqat aparmağa vadar edə bilər.

Bu məsələnin araşdırılması, hələ başladığı hərəkatın öz sağlığında

qələbə çaldığı surətdə daha mürəkkəbləşir.

Ola bilər ki, bəşər cəmiyyətində böyük rəhbərlərin həqiqi siması öz tərəfdarlarının mədhiyyələri və alqışlamalarının, yaxud düşmənlərinin uydurduqları yalanların nəticəsində örtbasdır edilsin və kölgədə qalsın. Bu danılmaz bir məsələdir ki, onun bariz nümunəsini İslam İnqilabının rəhbəri olan

İmam Xomeyni həzrətlərinin şəxsiyyəti və həyatı xüsusunda görmək olar.

Ona görə ki, onun rəhbərliyi və qələbəliyə çatdırdığı misilsiz inqilab

elə bir dirçəliş idi ki, dünya insanlarının böyük əksəriyyətinin (istər

müsəlman, istərsə də, qeyri-müsəlman) düşüncəsini və həyatını öz təsiri

altına aldı. İranda baş verən bu qasırğanın dalğaları bugünkü dünyaya hakim olan qüdrətlərin əsas təməlini titrədə bildi. Digər tərəfdən, geridə saxlatdırılmış və tarixdə təhqirə məruz qalmışların sarsılmaz ürəklərini hərəkətə gətirdi. Təbiidir ki, bu kimi böyük hərəkatı yaradanların həm güclü düşmənləri, həm də böyük dostları ola bilər. Bu məsələyə diqqət edərək insaflı araşdırıcılar müxtəlif maneə və çətinlikləri nəzərə alıb İmamın həqiqi simasını ətraflı araşdırmaq üçün elmi tədqiqata zidd olan hər hansı bir əməldən çəkinməlidirlər. Bu məsələyə riayət olunarsa o böyük insanın cihad, ictihad, əməl və elmi əsərləri indiki və gələcək nəsillərə aydın şəkildə açıqlanır.

Deməliyik ki, alim şəxsiyyətləri araşdırmaqda başqalarının (dost və ya düşmən) nəzərlərinə əsaslanan şəxslərin işi daha çətindir, bəlkə də bu kimi şəxslər istənilən və real bir nəticəyə çata bilməyəcəklər. Amma xoşbəxtlikdən İmam Xomeyninin fikri və obyektiv əsərləri kəmiyyət və keyfiyyət etibarı ilə o qədər zəngin və əhatəlidir ki, hər bir münsif şəxs İmam Xomeyninin (rəh) əsl şəxsiyyətinin mahiyyətini asanlıqla öyrənə bilər. O, İmamın şəxsiyyətinin ayrı-ayrı sahələrini yersiz böyüdüb-kiçiltmədən həqiqi və düzgün təsvir yarada bilər. Ümid edirik ki, biz də bu məqamda ağıl, insaf və həqiqətə uyğun hərəkət edərək faktiki və normal vəziyyətdən uzaq düşməyək.

## Haradan başlamalıyıq

Hər bir araşdırıcı İmam Xomeyninin şəxsiyyətinin neçə yönlü olmasından heyrətə gəlir və bilmir ki, İmam Xomeyninin şəxsiyyətinin hansı yöndən araşdırmağa başlasın və İmamın bəzən ziddiyyətli görünən şəxsiyyətini necə açıqlasın. O, bir fəqih, islamın daima inkişafda olan müctəhidlik zirvəsinə yüksəlmiş alim, filosof, nəzəri irfanın həqiqi tədqiqatçısı və islam əxlaqiyyatı müəllimi idi. Əməli irfanın sirli vadisinin dərinliyində seyr edən, dünyaya etina etməyən bir arif idi ki, azğın, müqəddəsliyə təzahür edən, din satan və riyakarların həqiqi simasını üzə çıxardırdı.

Sözlərinə, elminə əməl edən, arif, dindar və zalımlarla mübarizədə yorulmaz idi. Müsəlmanları qüdrət əldə edib hökumət qurmaq üçün, din və siyasət arasında əlaqə yaratmağa dəvət edən idi. İmam xalqın qəmindən bir an rahat olmayan, daim axirətin

fikrində olan bir alim idi. Dünyada ədalətin bərpa edilməsini istəyirdi və bütün müstəzəflərin dərd-qəmlərilə tanış idi. Xalqın din mərcəi olan, eyni halda da ayıq siyasətçi idi. Onu islamın həqiqi təmsilçisi, dərdlilərin dərmanı göstərən kimi qəbul edən xalq onu özlərinə rəhbər seçmişlər ki, müasir dövrdə yeganə mənəvi hərəkatın qələbəliyə doğru irəliləyişində rəhbərlik etsin. Yaxşı olar ki, sözümüzü İmam Xomeyninin mərcəliyi xüsusundan başlayaq.

## İmam Xomeyni bir mərcəyi-təqlid kimi

Din mərcəiyyətinin mahiyyəti müdriklik, şüur, dinşünaslıq və məsuliyyət hiss etməkdən ibarətdir. Bundan əvvəl şahid olduğumuz müxtəlif siyasi hərəkətlər və qiyamların beşiyi olan bir torpaqda İmam Xomeyninin xalq, azadlıq və müstəqillik adına böyük hərəkatı yaratmasını və onun rəhbərliyində müvəffəq olduğunu rəmzi həmin xüsusuyyətdədir.

Həqiqi mərcə, Tövhid carçısıdır. Peyğəmbərin yolunu davam etdirən və məada doğru yol açandır. Bunlar ancaq həqiqi mənada ədalətin sayəsində reallaşa bilər. Belə bir ədalət nəinki düşüncələrdə, hətta insanların ictimai və şəxsi yaşayışlarında da zühur etməlidir. Bu kimi ədalət olmadan Tövhidə çatmaq mümkün deyildir. Mərcəiyyət sözünün əsl mənası imamət deməkdir. Məsum imamların qeybəti dövründə imamlıq islamşünas, təqvalı, arif, mücahid müctəhidlərin öhdəsinə düşür. İmam Xomeyni fəlsəfə, dini maarif və ictimai elmlərə malik olan və əsl islami mərcəiyyəti, həm də Allahın dinini əsrimizdə bərpa edən bir mərcədir. İslam ümməti islamı öz mərcələrinin dilindən və rəftarlarından öyrənmişlər. Onlar müctəhidlərin rəhbərliyi altında həqiqi həyatın mənasını başa düşərək onların sayəsində həyat acılıqlarına qalib gəlib, səadətli və arxayın bir yaşayışa çata bilmişlər. “Xomeyni” bizim əsrimizdə həmin mərcəiyyətin əsl təmsilçisi və məzhəri idi.

## İmam Xomeyni dini bərpa edib ictimaiyyəti islah etdi

İmam Xomeyni dini bərpa etməkdə, ictimai islahatda yüksək dərəcəyə malikdir. İmam Xomeyni din alimidir. Din aliminin rolu dini açıqlamaqdan əlavə, həm də dinin gözətçisidir. Allah tərəfindən gələn dinlər əslində insan üçün nazil olmuşdur. Yer üzündə cəmiyyəti əhatə edən zaman və məkan çərçivəsində yaşayan, ağıl, beyin və düşüncəsi müxtəlif hədlərlə məhdud olmaqla yanaşı ixtiyar sahibi olan insana nazil edilmişdir. Aydındır ki, bu kimi nöqsanlığı olan insandan həqiqəti olduğu kimi qavraya biləcəyi və doğru yoldan azmayacağını ummaq olmaz.

Hər halda insan Allahın dinini dərk etməli və ona əməl etməlidir. İnsan düşüncəsi və fikri – insanın özü təxrib etmək fikrində olmasa da – hər an müxtəlif şübhələr və suallara məruz qalır. Əgər suallar və şübhələr yaranmasaydı, bəşər düşüncəsi təkamül tapmazdı. İlahi filosoflar və din mütəfəkkirləri geniş, dərin elmi və fikri səylərində insanın bu təbii xüsusiyyətini nəzərə almışlar. Heç şübhəsiz ki, islam hikməti və islam irfanı bu xüsusda xüsusi bir qüvvə, dolğunluq və cazibədarlığa malikdir.

İmam Xomeyni həzrətləri islam irfanı, kəlam elmi və fəlsəfə sahəsində tanınmış alimlərdən olub, dini və islam maarifinin keşiyində durmuşdur. Bu nöqteyi-nəzərdən başqa din alimləri və fəqihlərdən daha üstündür.

Bəzi fəqih və alimlərin bir sıra sahələrdə İmam həzrətlərindən üstün olmalarına baxmayaraq, onların müxtəlif elmi sahələrdə kamil və hərtərəfli şəkildə biliyə, elmə malik olmadıqlarına görə dini etiqadiyyat xüsusunda etibarlı və arxayın bir rəhbər ola bilməzlər.

Biz bu baxımdan “Xomeynini” dinimizin böyük rəhbəri və islam əsaslarının bərpaçısı, şübhələrdən irəli gələn fırtınalar qarşısında islam maarifinin müdafiəçisi kimi görürük.

Amma dini bərpa etmək başqa bir baxımdan daha çox əhəmiyyətə malikdir. İmam Xomeyni bu sahədə də xüsusi yüksəkliyə sahibdir. Allahın dini iki tərəfdən hədələnir və hədələnəcəkdir. Bunlar aşağıdakılardan ibarətdir:

1. Dini naqis şəkildə başa düşüb öz fikirlərini dinin həqiqəti kimi qələmə verib göstərən dar görüşlər tərəfindən hədələnir. Onlar öz adət-ənənələrinə müqəddəslik donu geydirirlər, dini müdafiə etmək adına,



bəzən də dinə xidmət etmək adı ilə dini əsl istiqamətindən uzaqlaşdırırlar. Bu məsələ müxtəlif şübhələrin ortaya çıxmasında, onların cavabsız qalmasında və araşdırıcı insanların dinə zidd mövqe tutmalarına ən mühüm amil olmasa da, mühüm amillərdən hesab olunur. Bu kimi amillərin nəticəsində dini cəmiyyətdə baş verən faciələr az deyildir.

2. Bir də dini öz həva-həvəslərinə və zorakıçılıqlarına zidd görənlər tərəfindən hədələnir. Bunlar ya dini bir yolluq məhv etmək istəyirlər, ya da ki, özlərinin nəfsi istəklərinə uyğun hərəkət edərək dini təhrif etmək niyyətindədirlər. Bu iki prosesin qarşısında bir sıra həqiqi dindarlar da olublar ki, dini qorumaq, bərpa etmək və dini cəmiyyətlərdə islahat aparmaq uğrunda sıxıntı-boğuntulara dözüb, bəzən canlarından da belə keçmişlər. “Fəzilət şahidləri” sayılan minlərlə realist müctəhidin qana bürünmələri islam cəmiyyətlərində ictimai və dini islahatın davam etdirilməsi üçün daha aydın sübutdur. İmam Xomeyni isə elə bir mücahiddir ki, həm irticaçılarla mübarizə aparmaq istəyən şəxslərin üzünə yeni bir yol açır, həm də xalq üçün misilsiz bir rəhbərdir. Elə bir mücahiddir ki, zalım hökumətləri aradan aparmaq yolunda bütün vücüdü ilə mübarizə etmiş, istismar olunmuş İranı azadlığa və izzətə çatdırmışdır. Bu səbəbdən böyük Xomeyni “Ehya” və “İslah” sahəsində islam tarixində adı çəkilən böyük şəxsiyyətlərdəndir. İslam inqilabının qələbəliyi onun “cəmiyyəti islah etmək” və dini “bərpa etmək” sahəsində on illərcə fikir və mübarizəsinin nəticəsidir.

O dahinin rəhbərliyi ilə qələbə çalan hərəkat istismarçılardan asılı olan zülmkarların hakimiyyəti dövründə baş verən hərəkatlarından geniş, dərin və xalqa arxalanan bir hərəkat idi.

Nümayəndəsi İmam Xomeyni olan hərəkat elə bir vaxtda qələbə çaldı ki, aztəminatlı xalqlar, İran xalqının nasionalizm və solçuluq hərəkatlarından xoş xatirələri yox idi. Nasionalizm və sol hərəkatları ya əvvəldən əcnəbilərdən asılı idilər və ya mədəni, tarixi kökə bağlanmadıqlarından inhirafa çəkilmişdilər.



## İMAM XOMEYNİNİN GÖRÜŞÜNDƏ

# MƏNƏVİ DƏYƏRLƏR VƏ MÜASİR İNSANIN PROBLEMİ

H.ABIYEV

Müasir insanın problemlərinin həlli üçün münasib olan mənəvi dəyərlər hansılardır?

Sual

Müasir insanın problemlərinin həlli üçün münasib olan mənəvi dəyərlər hansılardır? Belə dəyərlərin boşluğundan nə kimi problemlər yaranır?

**Qısa cavab**

Həqiqi səadətə çatmaq üçün insanın təkamül hərəkətini bir neçə istiqamətdə bəyan etmək olar:

1. İnsanın Allahla əlaqəsi;
2. İnsanın özü ilə əlaqəsi;
3. İnsanın sair insanlarla əlaqəsi.

Bunların hər birinin özünə məxsus xüsusiyyətləri olduğuna görə özünə məxsus həddi-hüdudu da olmalıdır. Buna görə də insanın nəzərdə tutulan istiqamətdəki hərəkəti üçün xüsusi metodları tələb edir. Bu mühüm məsələyə diqqət yetirməklə qeyd olunan əlaqələr bölməsində söhbət etmək üçün müxtəlif yönlərdə müfəssəl bəhslərə ehtiyac duyulur və bu kiçik məqaləyə sığmaz. Buna görə də yuxarıdakı əlaqələrin bəzi xüsusiyyətlərinə qısa şəkildə işarə edirik.

İnsanın Allah ilə əlaqəsi xüsusunda əsas məsələ Allaha itaət, bəndəlik və Onun dərgahında sırf təslimçilikdən ibarətdir. Yəni insan qüdrətli və ali məqamlı Allah qarşısında boyun əyməli, Ona xalis və sırf bəndəlik əsasında təslim olmalıdır. Bu da insanın Allahla əlaqəsinin əsasını təşkil edir. Buna görə də insanın Xaliqlə əlaqəsi nə qədər möhkəm olsa, Allahın qarşısında bəndəlik və təslimçilik ruhu da bir o qədər möhkəmlənər. İnsanın mütəal Allah ilə bağlılığına səbəb olan ən mühüm şey onun Allah barəsindəki mərifət və agahlığıdır.

Deməli, əgər insan Allah barəsində, eləcə də kainat barəsində daha kamil mərifət əldə etsə, Onun dərgahında daha artıq itaət və təslimçilik ruhuna malik olacaqdır. Çünki bu mühüm məsələnin mərifətlə birbaşa bağlılığı vardır. Nəzərdən qaçırmaq olmaz ki, insanın Allahla əlaqəsində xələl yaranması onun digər iki əlaqəsinə: yəni özü və başqaları ilə olan əlaqəsinə də xələl yetirir. Belə ki, insanın Allah ilə əlaqəsindən söhbət açılan zaman, təbiidir ki, insana və kainata ilahi nəzərlə nəzər salmış olur və insan ilahi yönə malik olan bir varlıq kimi qələmə verilir; o, Allahın camal və cəlalının cilvəgahıdır. Belə bir varlıq ilə kainatın əbədi və əzəli mənşəyi (Xaliq) ilə olan əlaqəsində bir xələl yaranarsa, təbiidir ki, onun özü və başqaları ilə olan əlaqəsində də xələl yaranacaqdır. Nəticədə özünün gerçək və əsil həyatını davam etdirə bilməyəcək, heyvanlar kimi sırf maddi, qərizə və şəhvət üzündən olan həyata üz gətirəcəkdir. Bunun da ağır nəticəsi hamı üçün əyandır.

İnsanın təkamül hərəkətinin ikinci mehvəri onun özü ilə olan əlaqəsidir ki, onun da necəliyi insanın fikir və ideologiyasının bünövrəsinin necə qoyulmasına bağlıdır. Yəni insan həyatın hədəfi, səbəbi və nədən ibarət olmasını özü üçün məlum etməlidir. Başqa sözlə desək, o, hansı hədəf və məqsəd üçün yaradıldığını bilməli, varlıq barəsində mərifət, mərifət yolları və insanşünaslıq məsələlərini həll etməli, heyrət və sərgərdanlıqdan xilas olmalıdır. Əlbəttə, insanın rabitə növünün təyini və rolunun məna edilməsində seyr-süluk və mənəvi təkamülün mövqe və əhəmiyyətini nəzərdən qaçırmaq olmaz. Hətta demək olar ki, bu mühüm məsələ olmadan insan özünü də layiqincə tanıya bilməz.

Aydındır ki, insan üçün mərifətin hasil olduğu zaman və nəticədə heyrət və sərgərdanlıqdan xilas olduğu halda əvvəlcə özünü və bunun ardınca da cəmiyyəti islah etməyə dair bir qədəm götürmüş olur. Çünki insanın ruh və batininin islah olunması öz ardınca xarici aləmdə cəmiyyətin islahını da



gətirir. İnsanın özü ilə Allah arasındakı əlaqəsinin islahı da öz ardınca insanın başqa insanlarla əlaqəsinin islahını tələb edir. Buna görə də gərək insan batininin və ruhunun islahına zərbə vuran hər bir işdən ciddi şəkildə çəkinsin.

Üçüncü mehvərdə, yəni insanın sair insanlarla olan əlaqəsində də demək lazımdır: bu mühüm məsələ iki istiqamətdədir: din və etiqada olan oxşarlıq, xilqətdə olan oxşarlıq. Necə ki, imam Əli (əleyhis-salam) "Nəhcul-bəlağə"də buyurmuşdur.["Nəhcul-bəlağə", məktub 53] Yəni insanın başqaları ilə olan əlaqəsi ya vahid etiqad əsasındadır və həmfikirlik, həməqidəlik əsasında müyəssər olur, ya da insan növünə məxsus olan xüsusiyyətlərdə müştərəklik yolu ilə – yəni insan olmaqda.

Qeyd olunan iki halda dərin məhəbbət hissləri, dolğun ülvi-insani duyğular yolu ilə başqaları ilə əlaqə yarada və bununla da əvvəlcə bəndələri, nəticə etibarı ilə də Allahı özündən razı sala bilər. Məhz buna görə də Allah-taala Quranda Peyğəmbəri-əkrəm (səlləllahu əleyhi və alih)-in bu gözəl xislətinə işarə edərək buyurur: "Əgər kobud xasiyyətli və daş ürəkli olsaydın, camaat sənin ətrafından mütləq dağılışardılar."["Ali-İmran" surəsi, ayə: 159]

Bir hədisdə də imam Sadiq (əleyhis-salam) buyurur: "İman – Allaha eşq və məhəbbətdən başqa bir şey deyildir."["Kafi", 2-ci cild, səh. 152]

Allaha eşq və məhəbbət ilk növbədə möminlərə, bunun ardınca da sair insanlara qarşı məhəbbətdən başqa yolla müyəssər olmaz.

Qeyd olunan üç mehvərdən hər biri üç əsas hövzədən ibarətdir ki, onların da hər biri ayrı-ayrılıqda nəticə almaq üçün münasib yol

və vasitələr məcmusunu tələb edir. Onlar aşağıdakılardan ibarətdir:

1. Allahı tanımaq;
2. İnsanı tanımaq;
3. İnsanın hədəfini və onu bu hədəfə doğru hidayət edən vasitələri tanımaq.

Xatırladırıq ki, bu üç hövzənin təqdim və təhlilində ikinci dərəcəli digər hövzələr də vardır və onların özü də öz ardınca mənəvi və əqlani (əql bəyənən) dəyərlər məcmuəsini gətirir. Bu da həqiqət aşiqlərinin həqiqət görən gözləri qarşısında yeni-yeni üfüqlər açır. İnsan bu əsaslı mehvərləri həyata keçirməkdə nə qədər müvəffəq və səadətli olsa, həqiqi kamala bir o qədər yaxınlaşmış olur. İnsan həqiqi kamala və səadətə nə qədər çox yaxınlaşsa, bəşər cəmiyyətlərində mövcud olan problemlər bir o qədər azalacaq və nəhayət bütün problemlər həll olunub aradan qalxacaqdır. Burada imam Xomeyninin (rəhmətullahi əleyh) dediyi sözün məzmunu dərk edilə bilər. O cənab buyurmuşdu: “Əgər 124 min peyğəmbərin hamısı bir şəhərdə olsaydılar, orada heç bir problem tapılmaz, eləcə də məhkəmə və s. şeylərə heç bir ehtiyac olmazdı.” Başqa bir filosofun sözü isə belədir: “Bütün dünya iki padşahın səltənət və hakimiyyəti üçün kiçik sayılır, halbuki bir xalça on nəfər arif və həkim üçün böyük sayılır.”

Bu müqəddiməni qeyd etməklə yuxarıdakı üç hövzəni qısa şəkildə bəyan edirik:

Birinci hövzə: Allahı tanımaq, hökmlərin fəlsəfəsi və şəri göstərişlərin səbəbi ilə agah olmaq.

İlahi və tövhid dünya görüşündə varlığın və aləmin əsas mehvəri Allahdır və hər bir şey Onun iradə, istək və qüdrəti mehvərində cərəyan edir. Allahı tanımaq asimani həqiqətin axtarışında olan insanın təkamülündə son dərəcə böyük təsir qoyur. Belə ki, bu məsələ insanın qarşılaşdığı problemlərin böyük hissəsini həll edə bilər. Çox hallarda bu məsələ zülm və cəhalətdən, ədalətsizlik və haqsızlıqdan yorulan bəşərin dərdlərinin və müsibətlərinin çoxuna son qoya bilər.

İmam Əli (əleyhis-salam) bu barədə buyurur: “Həmd-səna o Allaha məxsusdur ki, ən mahir natiqlər Onu (layiqincə) tərifləməkdən acizdirlər, sayanlar Onun nemətlərini sayıb qurtara bilməz... Onun sifətləri vəsfə gəlməz, məxsus vaxta və zamana sığmaz... Dinin başı və əsası Onu tanımaqdır. Onu tanımaq da yəqin etmək və düzgün yəqin etmək, Onu yeganə bilmək, layiqincə itaət etmək və (zatına artırılan) sifətləri Ondan inkar etməkdir.”[“Nəhcul-bəlağə”, xütbə 1]

Deməli, Allahı tanımaq və yeganə olduğunu bilmək insanı həqiqi kamala doğru hidayət edə bilər. Çünki Allah ən kamil varlıqdır, kamil bir varlıq da insanın əbədi səadəti üçün ən kamil qanunları, hər növ xətadan uzaq olan mütərəqqi göstərişləri verir. Buna əsasən, şəriət hökmlərinin səbəb və mahiyyəti barəsində agahlıq həqiqi kamal və səadət yolunu ötmək üçün ilk qədəm sayılır. Buna görə də Peyğəmbərin (səllallahu əleyhi və alih) əziz qızı həzrət Fatimə (əleyha salam) Allahın tanınması və şəriət hökmlərinin fəlsəfəsi barəsində belə buyurur: “Bu həqiqətə şəhadət verirəm ki, Allahdan başqa heç bir məbud yoxdur, yeganə və misilsizdir... İxlası onun təvili (yozumu, açıqlanması) qərar verdi və qəlbləri genişləndirərək onunla əlaqəli etdi, ağıl məşəlini zehinlərdə şöləlendirdi. Elə bir Allah ki, gözlərin Onu görməyə, dillərin və təsəvvürlərin Onun necə olmasını vəsf və bəyan etməyə qüdrəti çatmaz...” Bundan sonra həzrət Peyğəmbərin Allah ilə məxluqlar arasında vasitə olmasını belə bəyan edir: “Şəhadət verirəm ki, atam həzrət Məhəmməd – Allahın salavatı ona və pak Əhli-beytinə olsun! – Allahın bəndəsi və Onun Rəsuludur. Allah onu nazil etməzdən qabaq seçmişdir... Allah-taala həzrət Məhəmmədi seçmişdir ki, Öz işini tamamlasın, Onun iradə və fərmanı istiqamətində olan şeyləri irəli aparsın və Özünün möhkəm təqdiri əsasında olan proqramlarını yerinə yetirsin. Elə bir Peyğəmbər ki, – Allahın salam və salavatı ona olsun! – hər bir firqənin özünə bir din seçdiyini, hər bir qrupun bir od şöləsinin astanasına sürükləndiyini və hər bir dəstənin bir bütə sitayiş etdiyini görürdü. Hamı (fitri olaraq) Allahı tanıdığı halda (dildə) Onu inkar edirdi. Böyük Allah atamın vücud bərəkəti ilə qaranlıqları işıqlandırdı, qəlbləri

küfr zülmətlərindən təmizlədi, gözlərin qarşısına düşmüş heyrət pərdələrini kənara çəkdi; o, camaat arasında hidayət və aydınlıq gətirməyə başladı, onları əyri yollardan xilas etdi, qəlbin korluğunu onlardan uzaqlaşdırdı, düzgün dünya görüş bağışladı, möhkəm və sabit bir dinə doğru hidayət etdi və düzgün yola çağırdı." Bundan sonra imamətin dəyər və fəlsəfəsini belə bəyan edir: "Allah-taala bizə itaət etməyi ümmətin işlərinin sahmana düşməsi üçün və bizim imamətimizi pərakəndəlikdən amanda olmaq üçün bir vasitə qərar verdi." Daha sonra ilahi hökmlərin və şəriətin fəlsəfəsini, onların həyatdakı dəyər və məqamını bəyan edərək buyurur: "Allah imanı şirkdən paklanmaq üçün bir səbəb qərar verdi, sizin təkəbbürdən uzaq olmağınız üçün namazı vacib etdi, canlarınızın paklanması və ruzinizin artması üçün zəkatı qərar verdi; ixlası möhkəmləndirmək üçün orucu, dini möhkəmləndirmək üçün həcci, islamın izzətli və başı uca olması, küfrün, nifaqın zəlil və xar olması üçün cihadı; mənəvi mükafat üçün səbri qərar verdi. Məlumatsız xalq kütlələrinin islahı üçün əmr be mərufu, Allahın qəzəbindən uzaq olmaq üçün ata və anaya ehsan etməyi, nəslin qalıb davam etməsi və uzun ömürlülük üçün qohumluq əlaqələrinin bərqərar edilməsini; qanların toxunulmaz olması üçün qisas hökmünü, günahlardan bağışlanmaq üçün nəzirlərə vəfa etməyi, başqalarının hüququnun qorunması və mal-dövlətin azalmaması üçün ölçü qablarının və tərəzilərin düzgün şəkildə verilməsini; şirk çirkinliyindən təmizlənmək üçün şərabxorluğu, Allahın lənət və qəzəbindən amanda olmaq üçün yersiz ittihamlardan uzaq olmağı; iffətə təkid üçün oğurluqdan pəhriz etməyi qərar verdi; bəndəlikdə ixlas üçün şirki haram etdi. Allaha, əmr və qadağan etdiyi şeylərdə tabe olun![“Biharul-ənvar”, 29-cu cild, səh. 221 və 225]. Çünki Allahın bəndələri yalnız Ondan qorxan alimlərdir."[“Zariyat” surəsi, ayə: 20-21]

İkinci hövzə: nəfsi tanımaq

Dini mənbələrə müraciət etməklə görürük ki, insanın nəfsi (ruhu) və onun xilqət aləmindəki yüksək məqamı ilə əlaqədar çoxlu ayə və rəvayət vardır. Hətta nəfsin tanınması Quranda mərifət mehvərlərinin bir mühüm yolu kimi qeyd olunur: "Tezliklə asimanlarda və onların özündə (ruh və nəfslərində) olan nişanələri onlara göstərəcəyik ki, Onun haqq olması (bəndələrə) aşkar olsun."[“Fussilət” surəsi, ayə: 53]

Bu da islam dininin insan nəfsi (ruhu) üçün son dərəcə yüksək əhəmiyyət verdiyini göstərir. Peyğəmbər (səlləllahu əleyhi və alih)-in belə buyurduğu nəql olunur: "Hər kəs öz nəfsini tanısa, şübhəsiz, öz Rəbbini də tanımış olacaqdır."[“Biharul-ənvar”, 2-ci cild, səh. 32]

Tam və qəti şəkildə demək olar ki, Peyğəmbərin bu kəlamı xilqət aləmində insan nəfsinin və ruhunun böyük əhəmiyyət və yüksək mövqeyini göstərir. Çünki Allah dərgahında seyr-süluk edənlərin nəzərində bütün kainat Allahın ad və sifətlərinin təzahürü, nişanəsidir və Allah-taala xilqət aləminin güzgüsündə Öz qüdrətini nümayiş etdirir. Başqa sözlə desək, hər bir varlıq Allah-taalanın isim və sifətlərinin göstəricisi olduğuna görə Allah xilqət aləmində Öz isim və sifətlərinə tamaşa edir. Güzgülər silsiləsində bəziləri şəffaf, bəziləri bulanıq olduğundan, demək olar ki, kainatın güzgüsündə də belə bir qanun hakimdir: isim və sifətlər güzgüsündə bəzi varlıqlar dumanlı, bəziləri şəffaf, bəziləri də daha şəffafdır. Allahın isim və sifətlərinin bəziləri nümayiş etdirilsə də, Onun bütün sifət və isimlərini şəffaflığın ən yüksək səviyyəsində nümayiş etdirən varlıq məhz insandır. Buna görə də insan Allahın isim və sifətlərinin kamil məzhəridir (göstəricisidir) və əlbəttə, varlıq aləmini kamil şəkildə əks etdirən bir güzgü. Məhz belə olan halda Peyğəmbərin kəlamında nəfsin (ruhun) tanınması ilə Pərvərdigarın tanınması arasındakı uyğunluq məna tapır: hər kəs insanı (kamil şəkildə – cisim və ruhunun müxtəlif yönlərini) tanısa, Allahı da tanıyacaqdır. Çünki insan Allahın (isim və sifətlərinin) göstəricisidir. Əlbəttə, Əli (əleyhis-salam)-ın bu bəyanı aşağıdakı şerdə deyilən məsələdir:

اَتَزْعَمُ اَنَّكَ جِرْمٌ صَغِيرٌ

وَ فِيكَ انْطَوَى الْعَالَمُ الْاَكْبَرُ

"Ey insan! Yoxsa güman edirsən ki, gördüyün xırda cisimsən?!



Halbuki səndə ən böyük aləm qoyulmuşdur!”[İmam Əli (əleyhis-salam)-ın şerlər divanı, səh. 179]

Deməli, nəfsin və ruhun tanınması insan təkamülündə, onun bütün feyzlər və kamalların mənbəyinə qovuşmasına bir müqəddimədir. Bunun özü də bəşər cəmiyyətlərinə hakim olan problemlərin həllində özünə məxsus rol ifa edir.

Üçüncü hövzə: İnsanın hədəfi, eləcə də onu bu hədəfə doğru hidayət edən vasitə.

İnsan özünü tanıdıqdan sonra Allahı, Onun şəriətlərini və xilqət aləmində özünün məqamını, bunun ardınca da onun xilqətindən izlənilən hədəfi tanımalıdır. Buna görə də yuxarıda qeyd olunan mətləblərə diqqət yetirməklə demək olar: İnsan xilqət aləmində Allah-taalanın isim və sifətlərinin kamil göstəricisidir və Onun dərgahında böyük məqama malikdir. Bu müstəsna mövqe və məqam ilahi xəlifəlik məqamıdır ki, Allah onu insana bəxş etmiş və Quranda aşkar şəkildə buyurmuşdur: “(Yada sal) o zamanı ki, Pərvərdigarın mələklərə dedi: Həqiqətən Mən yer üzündə bir xəlifə qərar verəcəyəm.”[“Bəqərə” surəsi, ayə: 30]

Bu məqama diqqət yetirməklə “Allahın xəlifəsi olmaq”da hədəf Onun razılığından başqa bir şey ola bilməz. Onun razılığı da Onun sifətlərinə malik olaraq bu sifətlərin güzgüsünə çevrilməklə, daha yaxşı şəkildə desək, Onun zatında fani olmaqla mümkün ola bilər. Bu mühüm məsələ kamal yolunu ötüb keçməyin ən kamil vasitəsinə və ən mühüm ünvanına eşq bəsləmədən müyəssər ola bilməz.

Kəlamın xülasəsi

İnsan özünü və Rəbbini tanıdıqdan, əlbəttə, ilahi xilafət hədəfini bildikdən (insan bu məqama çatmaq üçün daim səy göstərir), həmçinin Quranda və Peyğəmbər (səlləllahu əleyhi və alih)-in pak itrətinin tərif və vəsflərində seyr edib agahlıq tapdıqdan sonra (itrət Peyğəmbər sünnətinin qəti şəkildə davamıdır) ilahi xəlifəlik məqamına bir qədəm yaxınlaşmış olur. Çünki qeyd olunan hövzə və mehvərlərə elm və agahlıq bütün mənəvi dəyərlərin başında dayanır. Xüsusilə müasir insan bu dəyərlərə ciddi ehtiyac duyur və bu dəyərlər onu Allahın yer üzündəki canişinlik məqamına yaxınlaşdırır. Məhz insanın özü barəsindəki bu elm və agahlığı Əli (əleyhis-salam) kimi kamil bir insan qura bilər. O həzrət buyurur: "Əgər qarışqanın ağzında apardığı arpa qabığını zülm ilə alaraq Allaha qarşı (bu qədər də) günah edim deyə, yeddilik təşkil edən iqlim qurşaqlarını, onun altında olanlarla birlikdə mənə versələr, yenə də qəbul (və bu günahı) etmərəm!"["Müstədrəkul-vəsail", 13-cü cild, səh. 211]

Xatırladırıq ki, qeyd olunanlardan başqa digər mənəvi dəyərlər də vardır ki, bütün dövr və zamanlarda insan cəmiyyətlərinin problemlərini həll etməkdə onların rol və təsiri inkar oluna bilməz. Belə ki, həzrət Fatimeyi-Zəhra (əleyha salam) öz xütbəsində bu dəyərlərin bəzisinə işarə etmişdir ki, biz də onu xülasə şəkildə qeyd etdik.

Bu dəyərlər aşağıdakılardan ibarətdir:

1. Məsuliyyət qəbul etmək: Bu mühüm məsələ bəşəriyyətin problemlərinin böyük bir hissəsini həll edə bilər. Çünki yalnız məsuliyyətlik hissi ilə insan Allahın, özünün və başqalarının qarşısındakı vəzifələrini yerinə yetirir.

2. Təqva və pəhrizkarlıq. Əgər insan cəmiyyətlərinin hər bir fərdi malik olduqları müxtəlif mədəni, irqi və dil fərqləri ilə yanaşı bu mühüm məsələyə diqqət yetirsələr, cürətlə demək olar ki, bəşər cəmiyyətlərində heç bir problem qalmaz.

3. Əmanəti sahibinə qaytarmaq, ədalət və insaf əsasında hökm etmək.

İnsanın rəhbərlərdən və hökumətlərdən həmişə tələb etdiyi ən mühüm istəklərdən biri ədalətin bərqərar edilməsidir. Onun icrası ilə problemlərin bəziləri, o cümlədən zülm, fəsad, ayrı-seçkilik və s. bəşər cəmiyyətindən aradan qalxacaqdır.

4. Allah yolunda dostluq və düşmənçilik.

Əgər bütün işlər, xüsusilə dostluqlar və düşmənçiliklər Allaha görə olsa, nahaq qanlar axıdılmaz, evlər viran olmaz, müsibətlər məzlumların başına gəlməz. Nəticədə hər növ əyrilik və Allahdan qeyrisinə ürək bağlamaq kimi hisslər aradan gedər.

5. Nəsihət etmək, həmdərd olmaq, qayğı və mehr-məhəbbət göstərmək.

Niyyəti pak və xislətləri gözəl olan bir şəxsin tərəfindən gözəl öyüd-nəsihət verilməsi bütün işlərin irəliləyişinə, bəşər cəmiyyətində ayrı-ayrı fərdlərin islahına səbəb olacaqdır. Eləcə də cəmiyyət üzvləri ilə həmdərd olub onlara mehribanlıq göstərmək insanların dərd və müsibətlərini nisbətən azaldır və cəmiyyəti bərabərlik və həmrəyliyə doğru aparır.

6. Risalət və nübüvvətin məqamının dərindən və dəqiq şəkildə tanınması. Bu mühüm məsələ insanların düzgün yolda hərəkət etməsində özünə məxsus rol ifa edir. Çünki əgər ilahi peyğəmbərlərin, məxsusən sonuncu Peyğəmbər həzrət Məhəmməd (səlləllahu əleyhi və alih)-in ilahi məqamı düzgün və gözəl şəkildə tanınsa, bəşər cəmiyyətini küfrdən və dinsizlikdən xilas edəcəkdir. Çünki peyğəmbərləri göndərməkdə Allahın əsas hədəfi insanların həqiqi kamal və səadətə doğru hidayət olunmasıdır.

7. Günahın təhlükəsinin və yaratdığı ağır və mənfi təsirlərin düzgün şəkildə tanınması.

Əgər rəzalət sifətləri insan ruhundan paklanmasa, insan fitrəti günah yükləri altında dəfn olunacaqdır. Bu barədə imam Sadiq (əleyhis-

salam) buyurur: “İnsan bir günah iş görən zaman onun qəlbində qara bir ləkə əmələ gəlir. Əgər tövbə etsə o ləkə aradan gedir. Əgər həmin günahı təkrar etsə o ləkə get-gedə böyüyür və nəhayət qəlbinin hər bir yerini örtür. Bu zaman artıq bu şəxs heç vaxt nicat tapmayacaqdır.”[“Kafi”, 2-ci cild, səh. 271, nömrə 13]

8. Təhdidlərin müqabilində möhkəm dayanmaq.

Bu məsələ başər cəmiyyətlərində islahatçılıq hərəkatlarının və inqilabların formalaşmasında çox mühüm rol ifa edir. Necə ki, həzrət Peyğəmbəri-əkrəm (səlləllahu əleyhi və alih)-in risalətində də inkar olunmaz rol ifa etmişdir. O həzrət dəvətinin qarşısında mövcud olan məkrli hiylələr və xoşagəlməz hadisələrə baxmayaraq, zorakı qüdrətlərin və müxaliflərin qarşısında bir addım belə, geri çəkilmədi, üstəlik öz müqəddəs yolunu daha güclü əzm və iradə ilə davam etdirdi. Bundan sonra islam dini yayılmağa başladı və başər cəmiyyətləri iman və mərifətə tərəf üz gətirdi. Bu da düzgün yolu tam təmkinlə və möhkəm iradə ilə ötməyin əhəmiyyətini çatdırır.

9. Saleh və pəhrizkar örnəklərə tabe olmaq.

İnsan cəmiyyətlərinin hər bir fərdinin xoşbəxtlik və səadətində bu məsələnin ifa etdiyi mühüm rol və əhəmiyyət heç kəsə məxfi deyildir. Buna görə də saleh, təqvalı, pəhrizkar örnəklərin seçilməsi cəmiyyəti haqqa doğru hidayət edə bilər.

10. İman və əməl

İslam dini mömin insandan istəmişdir ki, imanla əməli eyni səviyyədə əncam versin. Bunların biri olmadıqda digəri təklikdə Allahın və islamın istədiyi ola bilməz. Bu halda demək lazımdır ki, onların bir-birindən ayrılması nəzər və əməlin ayrılmasının bariz nümunəsidir. Deməli, iman yalnız əməl ilə yanaşı olduqda cəmiyyəti xoşagəlməz və pis şeylərdən xilas edə bilər.

11. Gerçəkliyi qəbul etmək və xəyallardan uzaq olmaq.

Öz eyib və nöqsanları, habelə istedad və gözəllikləri barəsində agahlığı olan və bu kimi gerçəkliyi qəbul edən cəmiyyət səadətə nail ola bilər. Belə ki, bu, bir cəmiyyətin səadətinin ilk şərtidir.

12. Maddi və mənəvi (axirət) həyatı arasında müvazinətin bərqərar edilməsi.

İnsanın axirəti tərk edərək dünyadan iki əlli yapışması və dünya ləzzətlərinə qurşanmasına haqqı yoxdur. Eləcə də dünyanı tərk edərək üzlət həyatı keçirməyə və yalnız axirətin fikrində olmağa da haqqı yoxdur. Çünki maddi və mənəvi işlərdə ifrat və təfritə yol vermək düzgün mərifət yolunu dərk və ayırd etməyin qarşısını alır və onu düz yoldan azdırır.

Qeyd olunanlar dəyər və səciyyələrin xülasəsi idi ki, əgər insanlar onlara vəfadar qalsalar insaniyyət zirvələrinə çatacaqlar. İnşallah!

İnsan cəmiyyətlərində mənəvi dəyər boşluqlarının ağır nəticələri

Bir çox işlər öz ziddləri ilə tanınır. Mənəvi dəyərlərin boşluğundan yaranan təhlükəni, onun qəti və danılmaz nəticəsini bir cümlədə “insan cəmiyyətlərinin və ayrı-ayrılıqda hər bir fərdin mənəvi tənəzzülə yuvarlanması” kimi bəyan edə bilərik. Bu kimi hallarda cəhalət elm kürsüsündə əyləşəcək, düzlüyün yerində yalan və iki üzlülük yuva salacaq, Allaha görə məhəbbət və ədavət öz yerini riyakarlığa, laqeydliyə, dinsizlərin və müşriklərin razılığına verəcək, məsuliyyət barəsində məlumatsızlıq agahlığın yerinə keçəcəkdir. Qeyd olunan sair sifət və dəyərlərdə də eynilə belədir: bütün müsbət sifətlərin yerinə onun ziddi keçəcəkdir. Aydındır ki, belə mənəvi dəyərlərin olmaması və onların yerinə mənfi sifətlərin keçməsi peyğəmbərlərin islahatçılıq hərəkatları ilə müxalif və ziddiyyətdə olmaqdadır ki, bunun nəticəsində başər cəmiyyəti süquta uğrayacaqdır. Buna görə də hamıya vacibdir ki, insan fitrətindən qaynaqlanan mənəvi dəyərlərin qorunub saxlanması üçün çalışsın ki, başər cəmiyyətləri haqqa və düzlüyə doğru hidayət olunsunlar.



## İMAM XOMEYNİNİN

# BÖYÜK GÜNAHLAR BARƏDƏ AÇIQLAMASI

M.R.DUZAL

Mərhum İmam Rahil özünün «Təhrirül-vəsilə» kitabında yazır:

Böyük günahlar bunlardır:
1. Quranda və yaxud hədislərdə onun haqqında cəhənnəm odu vədəsi verilsin.

2. Müqəddəs İslam şəriəti tərəfindən şiddətli surətdə qadağan olunsun.

3. Bir günahın başqa günahlardan böyük olmasına dəlilimiz olsun.

4. İnsanda olan sağlam ağıl, bir günahın böyük günah olmasını təsdiqləsin.

5. İlahi qayda və qanunlara əməl edən müsəlmanların zehnində belə fikir olsa ki, filan günah böyük günahdır.

6. Peyğəmbərimiz və yaxud İmamlarımız tərəfindən çatan hədislərdə bir günah böyük günah sayılsın. Müəllif sözünün davamında belə yazır:

Böyük günahlar çoxdur. Onlardan bəzisi isə bunlardır:
1. Allahın rəhmətindən məyus olmaq;

2. Allahın əzabından həmişəlik özünü amanda güman etmək;

3. Allahın, Onun Peyğəmbərinin (s) və yaxud İmamlarımızın adından yalan demək;

4. Nahaqdan bir adamı öldürmək;

5. Ata və ananın üzünə ağ olmaq;

6. Zülm etməklə bir yetimin malını mənimsəmək;

7 İsmətli bir qadına zina ittihamını vurmaq;

8. Düşmənlə mübarizə (cihad) meydanından qaçmaq;

9. Yaxın qohum-əqrəbalarla rabitəni kəsmək;

10. Sehr və cadu etmək;

11. Zina; (qadınla kəbinsiz cinsi əlaqədə olmaq);

12. Həmcinsbazlıq (kişinin kişi, qadının qadın ilə əlaqədə olması);

13. Oğurluq;

14. Yalandan and içmək;

15. Şəhadət verməyin vacib olduğu yerlərdə, boyun qaçırmaq;

16. Yalandan məhkəmədə şəhadət vermək;

17. Əhdə vəfa qılmamaq;

18. Ölünün vəsiyyətinə əməl etməmək;

19. Şərab içmək;

20. Faiz yemək (sələmçilik);

21. Haram mal yemək;

22. Qumarbazlıq;

23. Qan və yaxud meytə (özü ölən heyvan) ətini yemək;

24. Donuz əti yemək;

25. Şəriət qayda və qanunları ilə kəsilməmiş heyvan ətini yemək; (Lakin çarəsizlik üzündən yemək istisna olunur).

26 Az satmaq (Müştərini tərəzidə aldatmaq);

27. Dinini qorumaqda təhlükə ilə üzləşəcəyi bir yerə köçmək;

28. Zalıma kömək etmək;

29. Zalım bir şəxsə arxalanmaq;

30. Başqalarının haqqını bilərəkdən və üzrlü səbəb olmadan özündə saxlamaq;

31. Yalan danışmaq;

32. Özünü başqalarından böyük saymaq;

33. İsraf etmək;

34. Xəyanət etmək;

35. Başqalarının qeybətini etmək;

36. Söz gəzdirmək (ara vurmaq məqsədilə);

37. Faydasız işlərlə məşğul olmaq;

38. «Həcc» fərizəsini yüngül saymaq;

39. Namazı tərk etmək;

40. Zəkat verməmək;

41. Kiçik günahı təkrarlamaq.

Böyük günahların arasında Allaha şərik qoşmaq, Allah-təalanın buyurduğu qayda və qanunları inkar etmək və Peyğəmbərimiz (s) və İmamlarımızla düşmənçilik ən böyük günahlar sayılırlar. 15

Sadaladığımız günahlar böyük günahların bir qismi idi. Həmçinin Qurana, Peyğəmbərə (s), İmamlarımıza və müqəddəs Kəbə evinə nalayiq sözlər demək də böyük günahlardan sayılır.



# «İslam ümmətinin birliyi yolunda»

# İranlı alim

## Dr.Məhəmmədhüseyn Əmir Ərduşun tarixi təhlilləri

Mirzə Rəsul İsmayılzadə

**İslam ümmətinin birliyi tarix boyu bütün İslam rəhbərlərini və alimlərini düşündürən mövzulardan biri olmuşdur. Allah-Taala Qurani-Kərimdə buyurmuşdur:**

واعتصموا بحبل الله جميعاً ولا تفرقوا



## Hamılıqla Allahın ipindən yapışın və bir-birinizdən ayrılmayın.

İslam Peyğəmbəri (s) yaşadığı müddət ərzində müsəlmanların birliyinə xeyli əhəmiyyət vermiş, İslam ümmətini təfriqə salan mövzulardan uzaq olmalarını istəmişdir. İslam Peyğəmbəri (s) müxtəlif çıxışlarında müsəlmanların dilindən, irqindən, siyasi-ictimai mənsubiyyətindən asılı olmayaraq yeksan və bərabər hüquqa malik olduqlarını, ağ dərilinin qara dəriliyə, ərəbin əcəmə üstün olmadığını, üstünlük meyarı ancaq təqvalı və Allaha daha yaxın olmaqda olduğunu dönə-dönə vurğulamışdır.

Peyğəmbər həzrətləri vəfat etdikdən sonra İmam Əli (ə) həm nəzəriyyədə, həm də praktikada müsəlmanların vəhdətinə xeyli diqqət yetirmişdir. Həzrət Əlinin (ə) bu sahədə nə dərəcədə məsuliyyət hiss etdiyini Nəhcül-bəlağə əsərində açıq-aşkar görmək olar. O həzrət dəfələrlə vəhdət naminə özünün haqqından belə keçmişdir. Buna baxmayaraq İslam ümmətinin arasında ixtilaf və ikitirəlik törədənlər də az olmamışdır, onların çoxu din maskası altında şeytani üzlərini gizlədərək İslama qarşı olan köhnə qərəzlərini təfriqə salmaqla həyata keçirmişlər. İslam tarixi boyu bu təfriqələr bəzən İslama zidd və düşmən olan şəxslər tərəfindən yürüdülmüşdür. Eyni halda düşmənlərin bu siyasəti İslam ümmətinin içərisində bəzən yol verilən cəhalət və xurafətçiliklər üzündən baş vermişdir. İslam düşmənləri bəzi müsəlmanların bu zəifliyindən istifadə edərək İslam ümmətinin arasına soxulub təfriqə yaratmışlar. Tarix boyu bu kimi təxribatçı fikir və cərəyanların qarşısında böyük İslami şəxsiyyətlər dayanaraq elmi-təbliği və aydınlaşdırıcı fəaliyyətləri ilə müsəlmanların vəhdəti uğrunda çoxlu səylər göstərmişlər. Bu şəxsiyyətlərin arasında Seyid Cəmaləddin Əsədabadi, Məhəmməd İqbal Lahuri, Şeyx Şəltut, Nadir şah, Mirzə Ələkbər Sabir, Namiq Kamal, Məhəmməd Akif kimi böyük elm, ədəb, din və siyasət alimləri var.

19-cu əsrdən başlayaraq müsəlmanların vəhdət və birliyi daha mürəkkəb bir məsələyə çevrilmişdir. Xüsusilə cəhalətlə çulğalanmış bir sıra İslam xalqları, elm və sivilizasiya karvanından geri qalmış İslam ölkələrindən bəziləri bu geriliyin səbəbini özlərinin cəhaləti ucbatından deyil, yanlış olaraq İslamla əlaqələndirirlər. Onlar Qərb mədəniyyətinə uyaraq öz əsil İslam mədəniyyətlərini bərpa etmək əvəzinə tam Qərbləşmə və hətta qərbin mədəniyyətsizliklərini elm və sivilizasiya adına qəbul etməyi təbliğ edirdilər. Digər tərəfdən Qərb istismarçıları bulanıq sudan balıq tutmaq üçün suyu daha da bulandırırdılar. Məhz buna görə də İslam xalqları arasında uzun müddət müsəlman ziyalılarla müsəlman qərbpərəstlər arasında gərgin mübarizə və mübahisələr getmişdir. Bu mübarizədə qalib tərəf (müəyyən miqdarda) mübarizə tərəfləri deyil, Qərb istismarçıları olmuşdur. Bir sıra alimlər də problemi dərindən başa düşüb müsəlmanların birliyinə təkid edərək xurafət, cəhalət və

savadsızlıqla mübarizə aparıb ictimai və dini islahatlara və İslamı yenidən öyrənməyə, əsil İslamı xurafət və cəhalət tozundan silib təmizləməyə çalışmışlar. İran tarixində Nadir şah, Abbas Mirzə, Seyid Cəlaləddin Əsədabadi, Ayətulla Burucerdi, İmam Xomeyni (r), Qafqazda Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Mirməhəmməd Kərim Musəvi Bakuvi, Pakistanda İqbal Lahuri, Osmanlıda Məhəmməd Akif və Namiq Kamal kimi alimlər bu cərəyanın başında dururlar. Bu cərəyanları və məktəbləri düzgün, hərtərəfli və olduğu kimi təhlil edən yazılar az olmamışdır. Bu sahədə ərəb, fars və türk dillərində çoxlu qaynaqlar mövcuddur. Son vaxtlar həmin cərəyan və məktəbləri tarixi cəhətdən hərtərəfli, qərəzsiz və real araşdıran böyük İran alimi prof. Dr.Ərduş cənabları olmuşdur. O, “İslami birlik mövzusunda qədimdən dünənə kimi” adı altında yazdığı iri həcmdə olan kitabda ərəb, fars, türk dilli mənbələrə əsaslanaraq bu sahədə öz təhlilini vermişdir. Bu kitabda müəllif mövzunun əhəmiyyətini və kökünü araşdırır.

Müəllif kitabını bir-neçə hissəyə bölür. Giriş hissəsində məsələnin əhəmiyyətini və zəruriliyini vurğulayır. Kitabın birinci hissəsində İslam dünyasında vəhdət və ixtilaf məsələsinin meydana gəldiyi gündən 19-cu əsrə qədər araşdırır. Müsəlmanların bir-





lik və vəhdətlərini aradan aparan və zidd amilləri və bunun köklərini incələyir. Bu hissədə müəllif haqlı olaraq İslam ümmətində parçalanmanın Peyğəmbərin (s) vəfatından dərhal sonra yaranan hökumət məsələsi (Peyğəmbərin canişini məsələsi) üzərində qurulan toplantı ilə əlaqələndirir və deyir ki, Peyğəmbərin (s) vəfatından dərhal sonra baş verən parçalanmalarla yanaşı müsəlmanların birliyi naminə fəaliyyət göstərənlər də olmuşdur. Müəllif haqlı olaraq deyir ki, Peyğəmbərin canişinliyinə hər baxımdan daha layiq olan Həzrət Əli (ə) həmin toplantıda siyasi rəhbərliyə seçilmədiyinə baxmayaraq İslamı təfriqələrdən və parçalanmalardan qorumaq üçün hər üç xəlifə ilə elmi-dini əməkdaşlıq etmişdir. Onlara məsləhət verməkdə və çətin şəraitdə yardım etməkdə əlindən gələni əsirgəməmişdir. Bu baxımdan Peyğəmbərin vəfatından sonra Həzrət Əli (ə) müsəlmanların birliyinə diqqət yetirən və bu birlik naminə öz hüququndan keçən şəxs olmuşdur.

Müəllif tam incəliklə və elmi dəqiqliklə ilk İslam xəlifələri dövründə baş verən hadisələrlə əlaqədar yenə də vəhdət məsələsinə riayət etməklə elmi və real şəkildə öz münasibətini bildirir və üzərindən və kiminsə xətrinə dəyməsin deyə sürətlə keçir. Çünki müsəlmanların vəhdətə daha çox möhtac olduğu bu dövrdə köhnə yaraları eşələmək və kiminsə xətrinə dəymək düzgün olmazdı. Lakin eyni halda həqiqət də pərdə altında qalmamalıdır. Bu üzdən müəllif bir neçə səhifə ilə kifayətlənib mövzunu Əməvilər əsrində araşdırmağa çəkib gətirir.

Əməvilər sülaləsinin İslamdan nə dərəcədə uzaqlaşmalarını vurğulayan müəllif cahiliyyət üzündən meydana gələn ərəb milliyyətçiliyinə rəvac verən Əməvilərin iç üzlərini açıqlayır. İslam aləmində ayrı-seçkiliyi, irqçiliyi, kor təəssübü yayan Əməvilər İslamın humanist dəyərlərindən, o cümlədən bütün insanların bərabər hüquqa malik olmaq, qardaşlıq və bərabərlik dəyərlərindən uzaqlaşaraq ərəb-əcəm savaşı saldılar və İslam dünyasında parçalanmalara gətirib çıxaran nasionalist düşüncələrini yayaraq ərəbçilik məfkurəsini ön plana aldılar. Bundan əlavə İslamın zühur etdiyi ilk günlərdən İslam yolunda fəal iştirak edən Peyğəmbərin (s) ən yaxın yardımçısı, canişini və kürəkəni olan Həzrət Əliyə (ə) iftira yaxmaq, təhqir etməklə məşğul olub Əli övladına divan tutdular.

Müəllif bu silsilədən ancaq Ömər ibn Əbdüləzizi istisna edərək, onu İslam tarixində nümunəvi və demokrat bir hökumət başçısı kimi təqdim edir və onun yürütdüyü islahatı haqlı hesab edir.



Əməvilərdən sonra Abbasilərin də İslam birliyinə qarşı nələr etdiklərini qələmə alan müəllif İslam dünyasında parçalanmaların səbəblərini geniş şəkildə araşdıraraq bu birliyə riayət etməyən iki böyük İslam imperatorluğunu tənqid atəşinə tutur. Müəllif həm Osmanlı, həm də İran (Səfəvilər) imperatorluqlarını və onların başçılarını qınayır. Onların başçılarının gördükləri yaramaz işləri, öz taxt-taclarını əsas məqsəd bilib İslamı unutduqlarını və birləşmək əvəzinə Qərblilərin şeytançılığının təsiri altında düşmənliyə yol verməlerini ürəkdən pisləyir. Müəllif Şərq aləmində yaranan geriliyi, Qərbdən geridə qalmağı, İslamın üstün və mütərəqqi məqamlarına baxmayaraq cəhalət və xurafatlərə tutulmağı və parçalanmaların səbəbini həmin imperatorluqların başçılarının həqiqətdən uzaq düşmələri ilə izah edir. O hətta Şərq dünyasında Osmanlının dağılması, müxtəlif təriqətlərin meydana gəlməsinin kökünü də bir-biri ilə səbəb-nəticə əlaqəsində olan İslam hakimlərinin bacarıqsızlıq, həqiqətdən uzaq düşmək, bir-birini başa düşməmək, Qərbin təxribatçı təbliğatlarının təsirində qalmaq və onların dövlətçilik fəlsəfəsinin puç olması ilə əlaqələndirir.

Müsəlmanların parçalanmış və pərakəndə durumu müəllifi üzür. 19-20-ci əsrlərdə müsəlmanların

arasında olan ixtilaf və bəzən cəhalət, boş və yersiz milliyyətçilik nəticəsində yaranmış parçalanmalar müəllifi dərindən narahat edir və kövrəldir. Bu üzdən bəzən müəllif öz daxili emosiyasını ələ ala bilmir və bunu açıq-aşkar göstərir. Başqa bir tərəfdən müsəlmanların birliyi, inkişafı və tərəqqisi uğrunda səy göstərən şəxsiyyətləri xüsusi vurğulayır və kitabın geniş hissəsini bu kimi panislamist və vəhdət tələb şəxsiyyətlərə ixtisas verir.

Müəllif bu sahədə səy göstərən və müsəlmanların birliyinə çalışıb ixtilafları aradan qaldırmağı əsas məqsəd seçən İran şahı Nadir şah Əfşarın gördüyü tədbirləri çox diqqətlə izləyir.

Kitabın əsas hissəsi vəhdət carçısı olan Seyid Cəmaləddin Əsədabadiyə ixtisas verilib və həmin yolda əməyi olan başqa şəxsiyyətləri, o cümlədən Namiq Kamal, Məhəmməd Akif və Mirzə Ələkbər Sabir kimi dühaları alqışlayır.

Nəhayət hər zaman müsəlmanlar üçün vacib olan birliyin bu gün də müsəlmanlara daha vacib olduğunu kitabın yazılmamış səhifələrində göstərir və bu arzuya nail olmağı gözləyir.

Müəllif müsəlmanların qərb istismarçıları qarşısında mövqelərini təhlil edərək müasir dövrdə vəhdət və birlik deyiləndə müsəlmanların öz aralarında partiyadaxili parçalanmadan deyil qərbin inkişaf və sivilizasiyası qarşısında düzgün mövqe tutmadan söz gedir. Məhz buna görə də 19-cu əsrdən başlayaraq vəhdət məsələsi özünün daha çox islahatların aparılması kimi təzahür etdi, ona görə də müəllif İslam dünyasında islahat aparmaq istəyən Seyid Cəmaləddin kimi ali şəxsiyyətləri birliyə dəvət edən şəxsiyyət kimi təqdim edir və kitabın böyük hissəsini Seyid Cəmaləddinin islahatlarına ixtisas verir.

Müəllif yeni dövrün hadisələrini və qərbin inkişafını təhlil edərkən müsəlmanların qərblə münasibətdə iki cür davranmalarını qeyd edərək yazır: Müsəlmanlar qərbin inkişaf və tərəqqisini gördükdə müxtəlif şəkildə davrandılar, onlar ya qərbdən qaçıb onunla hərtərəfli mübarizə aparmaq istədilər və ya qərbə vurulub ona meyl edərək tam qərbləşmək istədilər. Bu arada məntiqə, ağıla tabe olan müsəlmanlar isə qərbin ecazkar tərəqqi və inkişafı qarşısında özlərini itirmədən özlərinə yadlaşmadan bu fenomenlə real davrandılar. Yəni nə qərbdən qaçmaq istədilər, nə də ki, tam onun qarşısında təslim olmadılar. Onlar özlərinə inanaraq məsələni məntiqi yozmağa başladılar və qərbin əsil mahiyyətini öyrənmək istədilər. Son dövrdə İslamçılar, İslam vəhdətinə maraq göstərən panislamist islahatçılar qərbə qarşı qərbşünaslıq mövqeyindən yanaşdılar. Qərbi tanımaq, onun müsbət cəhətlərindən faydalanmaq və mənfi cəhətlərini kənara qoymaq. Kitabın əsas hissəsini bu mövzu təşkil edir və müəllif “İslami birlik” nəzəriyyəsini ortaya qoyaraq müasir dövrdə bu nəzəriyyənin üç istiqamətdə fəaliyyətini başlayıb vahid məqsəddə konkretləşdiyini izah edir. Deməli İslami birlik hərəkatı İslam xalqları, məzhəb və təriqətləri arasında birlik yaratmaq, islahatlar aparmaq və istismarçılar və müstəmləkəçilərlə mübarizə aparmaq, kimi üç prinsip üzərində yaranmışdır. Müəllif bu mövzuları yaxşıca izah edir, amma çox təəssüf ki, islahatçı şəxsiyyətlər haqqında (İslam ölkələrində) Seyid Cəmaləddindən başqa ad və ya əsla məlumat vermir.

Bir də bunu artırmaq istərdim ki, müsəlmanların birliyi dedikdə sünnilərin şiələşməsi, və ya şiələrin sünniləşməsi nəzərdə tutulmur. Buna zərurət də yoxdur və olası iş də deyildir. Müsəlmanların birliyi dedikdə müxtəlif İslam məzhəblərinə qulluq edənlərin bir-birilərini tanımaları və bir-birilərinə qarşı ehtiramla davranmaları və bir-birilərinin əqidə və inanclarına hörmətlə yanaşmaları nəzərdə tutulur. Bir də qeyri-müsəlmanlara qarşı İlahi ipə sarılaraq vahid cəbhədən çıxış etmələri nəzərdə tutulur.

Hamılıqla Allahın ipindən yapışın və bir-birinizdən ayrılmayın.

# NAMAZDA RİAYƏT EDİLMƏSİ LAZIMLI OLAN NORMALAR

## İMAM XOMEYNİ (RƏH)

**İmam Xomeyni (rəh) namazın fəlsəfi-ibadi mahiyyəti (Adabüss-salat) kitabında namazın bütün hallarında riayət edilməsi lazımlı olan keyfiyyətlər və normaları aşağıdakılardan ibarət olduğunu bildirir. İstiazə namazın bir hissəsi kimişeytandan Allaha pənah aparılır.**

**İstiazənin (şeytandan Allaha pənah aparmağın) rüknləri var və həmin rüknlər dörddür.**

1. İstiazə edən (pənah aparan) (subyek).
2. Nədən pənah aparmaq.
3. Kimə pənah aparmaq.
4. Nəyə xatir pənah aparmaq (məqsəd).

Bil ki, bu rüknlərin geniş şərhi vardır, lakin onlara toxunmaq bu məqalənin həddindən xaricdir. Biz onların haqqında müxtəsər şəkildə bəhs etməklə kifayətlənirik.

Birinci rükn. Bu, insaniyyətin həqiqətidir ki, əvvəldən; Allaha tərəf seyr-sülukdan başlayır və son həddə, zati fənada bitir. Mütləq fəna hasil olan kimi şeytan həlak olur və istiazə həyata keçmiş sayılır.

Bu mətləbin şərhi budur ki, insan nə qədər ki, nəfsinin və təbiətinin çərçivəsində qalıb, ruhani səfərə, Allaha tərəf süluki hərəkətə başlamayıb və nə qədər ki, şeytani məqamlardadırsa istiazənin həqiqətinə daxil olmayıbdır və Allahın fəzli və inayəti olmasa dilində etdiyi istiazə də faydasızdır, üstəlik hətta bununla şeytan səltənətini isbat və təhkim etməkdir. Elə ki, Allaha tərəf seyr-süluk edib ruhani səfərə başladısa bu zaman onun səfərinə mane olan, yolunda tikan olan qüvvə həman şeytandır, istər ruhi-şeytani qüvvə olsun, istər cin və insanlardan olan şeytan olsun. Çünki cin və insan da əgər yolda tikan olub Allah yolunda əngəl olsa şeytanın köməkçisi və qulluqçusudur. Allah təala mübarək Nas surəsində bu mətləbə işarə edib buyurur: «Sənə cinlərdən, ya insanlardan olan xənnasın vəsvəsəsindən pənah aparıram. O, insanların sinələrində vəsvəsə edər».

Biz şeytanı cin fərz etsək ayədən başa düşülür ki, vəsvəsə edən xənnas adı almış şeytan cin də ola bilər, insan da, biri əsli şeytan, digəri tabe olan şeytan. Əgər şeytan cinə bənzəyən başqa bir həqiqətdirsə ayədən belə məna çıxır ki, bu iki növ cin və insan da şeytan timsalında olan həqiqətlərdir.

Başqa bir ayədə digər bir mətləbə işarə edib buyurur: «İnsanların və cinlərin şeytanları...» Göründüyü kimi mübarək Nas surəsində yuxarıda qeyd olunan istiazənin rüknləri deyilmişdir.

Deməli insan Allaha tərəf seyr-süluk etməmişdən öncə müstəizpənah aparan sayılmır. Seyr tamam olandan, bəndəçilikdən əsər-əlamət qalmayandan, mütləq zatda fani olub ona uğradıqdan sonra istiazədən, Allaha pənah apardığı şeytandan və pənah aparanın özündən heç bir əsər-əlamət qalmır. Bu zaman arifin qəlbində haqqdan və ilahi səltənətdən başqa heç nə olmur. Qəlbindən, özündən xəbəri olmur. Bu məqamda özünü də, qəlbini də unudur. Üns, rücu* halları baş verəndə də yenə istiazə yaranır, lakin salikdə olan

istiazə kimi yox. Buna görə də Peyğəmbər(s)-ə də istiazə etməyə əmr verilmişdir. Allah-təala buyurur: De! Dan yerinin rəbbinə pənah aparıram. De! İnsanların rəbbinə pənah aparıram. De! Sənə şeytanların vəsvəsəsindən pənah aparıram, bir də ey rəbbim, onların mənim yanımda hazır olmalarından sənə pənah aparıram.

Deməli insan iki məqamda istiazə edən (pənah aparan) olmur: biri seyr-sülukdan əvvəl. Bu, həmin haldır ki, şeytanın istifadəsi və səltənətdən tam kənarda qaldığı haldır. Digəri isə seyr-süluku başa vurandan sonradır ki, bu zaman mütləq fəna hasil olar. Həmin vaxt pənah aparandan, pənah aparılan varlıqdan, pənah aparmağın səbəbindən və pənah aparmağın özündən əsər-əlamət yoxdur.

İki məqamda isə insan pənah aparandır: Biri Allaha tərəf seyr-süluku başladığı zaman. O, insaniyyətin düz yolunda, siratəl-müstəqimdə olan tikanlardan pənah aparar. Allah təala şeytanın sözünü nəql edərək buyurur: «Məni azdırdığın üçün sənin düz olan yolunda busquda oturacağam...»1

Digəri mütləq fənadan rücu edilən halda rəngarəng hicablardan (maneələrdən) pənah aparar.

İkinci rükn. Nədən pənah aparmaq. Bu, lənətlənmiş İblis və qovulmuş Şeytandır ki, müxtəlif tələlərlə insanı məqsədinə çatmağa mane olur. Bəzi böyük ariflərdən demişlər ki, şeytanın həqiqəti sivaiyyə etibarı ilə bütün aləmlərdən ibarətdir. Bu



söz məncə düz deyil. Çünki, sivaiyyə cəhəti həqiqəti və reallıqda olmayan bir vəhmdən və movhum surətdən ibarətdir. Bu da iblisin tələlərindəndir ki, insanın başını onunla qatır. Ola bilsin ki, Allah təala elə həmin mənaya işarə edərək buyurur: «Sizi mal artırmaq qafil etdi, hətta qəbristanlığa çatdınız»2. Əks təqdirdə İblisin özü elə bir həqiqətdir ki, iblislərin başçısı olan külli iblis həqiqətindən və timsalından mücərrəd olan «vəhmül-küll»-dür. Necə ki, həqiqəti-əqliyyeyi-mücərrədeyi-külliyyə olan ilk Adəm «əqlül-küll»-dür. Cüzi mülki vəhmilər onun məzhəri və ona aid olduğu şeylərdəndir. Bu məqamın geniş şərhi və təhqiqi bu risalənin həcmindən xaricdir.

Ümumiyyətlə bu ilahi seyr-sülukda mane olan, yolda tikan olan şeytan, ya onun məzhərləridir ki, onların əməlləri də şeytanın əməlləridir. Qeyb və şühud aləmindən, nəfs üçün hasil olan maneəçiliklər, onun müxtəlif halları cananın üzünə hicab sayılır, istər fəqirlik, mal-dövlət, sağlamlıq, xəstəlik, qüdrət və acizlik, elm və cəhalət, xoşbəxt və bədbəxt hadisələr kimi dünyəvi-mülki hadisələr olsun, istər behişt, cəhənnəm, ona aid olan elmlər, hətta Allahın tövhidinə aid olan bürhani-əqli elmlər kimi misali və mücərrəd qeybi fenomenlərin hamısı İblisin tələlərindən ola bilər ki, insanı haqqdan, onunla ünsiyyətdə və xəlvətdə olmaqdan saxlar, başını belə şeylərlə qatar. Hətta mənəvi məqamlarla, ruhani dərəcələrdə dayanmaqla (zahirən bu, insaniyyət yolunda dayanmaq, batinən haqqın yolunda dayanmaqdır) başlarını qatar. Bu, iblislərin ən böyüyünün tələlərindəndir ki, bundan Allaha pənah aparmaq lazımdır.

Səni haqqdan saxlayan, məhbubun gözəl camalından məhrum edən amil şeytandır, istər insan surətində olsun, istər cin surətində. Səni məqsədə çatmağa qoymayan şeylər isə şeytanın tələləridir, istər məqam və dərəcə qismindən olsun, istər elm, kamal, sənət, eyş-işrət, rifah, əziyyət, zillət və s. Bunlar məzəmmət olunmuş dünyadan ibarətdir. Başqa sözlə qəlbin haqqdan başqasına bağlılığı şeytanın dünyasıdır, bu da məzəmmət olunur. Şeytanın tələlərindən olduğu üçün ondan pənah aparılmalıdır. Peyğəmbər(s) buyurur: «Pənah aparıram Allahın kərim vəchinə, onun heç kəsin qıra bilmədiyi kəlmələrinə, səmadan nazil olan və səmaya qalxanların şərrindən, yerdən və oradan xaric olan şeylərin şərrindən, gecə və gündüzün fitnələrindən, gecə və gündüzün əhlindən, yalnız xeyirlə hərəkət edənlər istisna olmaqla»1.

Allahın vəchinə və kəlmələrinə pənah aparmaq cəmal və cəlal dənizi ilə əhatə olunmaqdır. İnsana bunda mane olan şərdir, şeytan və onun hiylələri aləminə aiddir. Onlardan Allahın vəchinə pənah aparılmalıdır, istər kamil səmavi həqiqətlərindən olsun, istər yerə məxsus olan naqisliklərdən. Yalnız xeyirli olanlar müstəsnadır ki, bu ilahi xeyirlər mütləq xeyirə insanı dəvət edir.

Üçüncü rükn. Kimə pənah aparmaqdan ibarətdir. Bil ki, istizaə Allaha tərəf seyri-sülük edən kimsədə reallaşır və haqqa tərəf istiqamətlənmiş yolda əldə edilir. Yəni istiazə seyri-süluk mərhələlərində olan salikə məxsusdur. Deməli məqam və mərhələlər cəhətdən istiazənin rüknləri fərqlənir. Bu mətləbə işarə edən «Nas» surəsində deyilir: «De! Mən insanların rəbbinə, insanların malikinə, insanların pərvərdigarına pənah aparıram». Seyrin əvvəlindən qəlbin məqamının həddinə qədər seyr edən rübubiyyət məqamına pənah aparır. Ola bilər ki, bu rübubiyyət feli və əməli olsun ki, «Allahın tam kəlmələrinə pənah aparıram»1 sözü ilə uyğun gəlsin. Salikin seyri qəlb məqamında sona yetdikdə ilahinin səltənət məqamı qəlbdə zühur edər. Bu məqamda «malikin-nas» məqamına İblisin qəlbə səltənətinin şərrindən, onun zülm dolu batini səltənətindən pənah aparmaq lazımdır. Necə ki, birinci məqamda onun qəlbi istifadəsinin şərrindən pənah aparılmalıdır. Ola bilsin ki, deyilən «İnsanların sinələrində vəsvəsə edər» ifadəsi (qəlb və ruhlardakı vəsvəsə xənnasdandır). Onun üçündür ki, ümumi halda tanıtmaq məqamında belə münasib tərifdən istifadə olunur. Seyr edən kəs qəlb məqamından da keçib ruh məqamına çatar (bu, ilahi bir nəfsdir ki, onun Allaha bağlılığı günəş şüasının günəşə bağlılığından daha incədir). Bu məqamda heyrət, cazibə, eşq və şövq başlayır. Bu məqamda «ilahin-nas»a pənah aparılır. Bu məqamdan da keçəndə zat güzgüsüz «nəsbul-eyn»-ə aid olur. Başqa sözlə sir məqamına

çatar. Burada «Sənə səndən pənah aparıram»2 sözü münasib gəlir.

Bu məqamda geniş şərhlər vardır ki, bura münasib deyil.

Bil ki, Allahın adına pənah aparmaq adın ətraflı və hər şeyi əhatə etdiyinə görə bütün məqamlara uyğundur. Bu, əslində mütləq istiazədir ki, digər istiazələr nə iləsə müqəyyəd və nisbi olunur.

Dördüncü rükn. İstiazənin məqsədi barəsindədir. Bil ki, istiazə edən kəsin zatən istədiyi şey kamillik, səadət və xeyir qəbilindəndir. Bu da seyr edənlərin məqam və mərhələsinə görə müxtəlif olur. Belə ki, seyr edən nə qədər ki, nəfs evində və təbiət pərdəsi altındadır, seyrinin məqsədi nəfsani kamilliyə, dəyərsiz maddi və təbii səadətlərə çatmaqdır. Bu, seyrin və hərəkətin başlanışındadır. Nəfs evindən çıxdıqda və ruhani məqamlardan, zövqlü mücərrəd kamilliklərdən keçdikdə məqsədi daha ali, daha kamil olar, nəfsani məqamlara arxa çevirər. Onun məqsədinin qibləsi o zaman qəlbi kamillik və batini səadətə nail olmaqdır. Bu məqamdan da keçib ruhi sirr mənzilinə çatar. Bu zaman onun daxilində ilahi təcəlliyyat başlayar. Onun batini dili əvvəlcə: «Üzümü Allahın vəchinə tutdum», sonra: «Üzümü Allaha (onun adlarına) tutdum», sonra: «Üzümü Ona tutdum» mərhələləri gələr. Ola bilsin ki, «Üzümü göyləri və yeri yaradana tutdum»1 ifadəsi birinci məqama aid





olsun, «yaradıcılıq» sözünə əsasən, hər bir məqamda salikin həqiqi məqsədi zatən kamillik və səadət hasil etməkdir. Hər məqamda səadət və kamilliklə yanaşı şeytanın özü və ya onun qurduğu tələlərindən biri ona çatmağa mane olur. Buna görə də seyr edən çarəsiz halda Allaha pənah aparır ki, öz əsil və həqiqi məqsədinə çatsın. Deməli istiazənin həqiqi məqsədi istənilən kamillik və səadəti əldə etməkdir. Məqsədlərin sonu, istəklərin axırı da Allah-təaladır. Bu məqamda, ya ondan sonra Allahdan başqa hər şey məhv olar, buna tabe olaraq şeytandan pənah aparmaq da «səhv» məqamında hasil olar. Əvvəl və axırda həmdlər Allaha məxsusdur.

Axirət yolunun ibadətlərdə və batini vəzifələrində qəlbi və batini keyfiyyətlərindən biri Rəbbinin izzət və əzəmətinə, bəndənin zəif və aşağı mərtəbədə olmasına diqqət yetirməkdir. Ürfan və mənəviyyat yolunun yolçusu üçün bu ən önəmli məqamdır. Əslində hər bir yolçunun bu yolda irəliləməsi də həmin diqqətlə ölçülür. Hətta insanın kamilliyi və naqisliyi də bununla ölçülər. İnsan nə qədər Rəbbinin əzəmətinə və özünün Allah qarşısında zəlilliyinə, kiçikliyinə fikir verib diqqət yetirirsə bir o qədər də kamildir, hər kəsin dəyəri düşüncəsi miqdarıncadır. Əks təqdirdə insan naqis sayılır. Xudpəsəndlik, boş yerə öyünmə, özünü bəyənmə kimi xasiyyətlər insana qalib gəldikdə, insan kamalından uzaq düşər və Rəbbinə yaxınlaşmaqdan məhrum olar. Xüdpəsəndlik və özünə pərəstiş pərdəsi başqa qatı qaranlıq pərdələrindən daha qalın və sərtdir. Bu pərdəni yırtmaq daha çətindir, hətta bütün qaranlıq pərdələrini yırtmaq üçün ilk əvvəl xüdpəsəndlik pərdəsini yırtıb özünü bu həbsxanadan xilas etmək lazımdır. Bu qeyb ilə müşahidəni, gizli ilə aşkarlığın açarıdır və ruhani kamilliyə yüksəlişin darvazasıdır. İnsan özünü düşünür, özünün keçici gözəlliyinə, kamilliyinə fikir verirsə əsl bütöv olan kamal və camaldan xəbərsiz qalır və ondan uzaq düşür. Allaha doğru hərəkətə başlamanın ilk şərti və addımı həmin xudpəsəndlik hicabı və pərdəsindən çıxmaqdır. Haqla batilin ayrımı da həmin məqamdan

başlanır. Yəni hərəkətini xudpəsəndlik və xudbinlik pərdəsini yırtmadan, özünü bu kimi maneələrdən qurtarmadan başlayan yolçu heç vaxt məqsədə çatmaz. Onun bu hərəkəti və yolu Allaha doğru deyil, özünə doğru olan bir hərəkətdir və daha doğrusu öz ətrafında fırlanmağa səbəb olan bir hərəkətdir «Nəfs bütü (insanın özü) ana bütdür».

Allah-Taala buyurmuşdur:

«Allah və onun Rəsuluna tərəf hicrət edərək (köçərək) evindən bayıra çıxan insan ölümlə qarşılaşsa, onun əcrini Allah ödəyəcəkdir».

Suri və maddi hicrət və ya hicrətin surəti bundan ibarətdir ki, insan suri evindən bədəni ilə Kəbəyə və ya övliyaların məzarlarına hicrət edib ziyarət eləsin və mənəvi hicrət bundan ibarətdir ki, insan nəfsinə qalib gəlib dünyadan qırıb Allaha və onun peyğəmbərinə tərəf yönəlib köçsün. Allahın peyğəmbərinə və vəlisinə (imamlara) tərəf yönəlmək də Allaha tərəf yönəlmək və yaxınlaşmaq deməkdir.

Nə qədər ki, insan öz nəfsinin əsarətindən xilas olmayıb və xudpəsəndlik örtüyünə bürünübsə, ona yolçu demək olmaz. Nə qədər ki, yolçunun gözünün önündən xudbinlik şəhərinin divarları itməyibsə və özünəpərəstiş aləmindən çıxmayıbsa və bu aləmin səsi hələ qulağına gəlirsə ona müsafir demək olmaz.

Misbahüş-şəriə kitabında yazılmışdır: İmam Sadiq(ə) buyurmuşdur: Bəndəlik bir cövhərdir ki, onun iç üzü və özəyi rübubiyyətdir. Bəndəlikdə əldə edilməyən rübubiyyətdə əldə edilər. Rübubiyyətdən örtülü qalan bəndəlikdə əldə edilər.

Bəndəlik qaydası ilə seyr edən və alnına bəndəlik möhürü vuran kimsə Rəbbinin bəxş etdiyi əzizliyə çatar. Rəbbaniyyətin həqiqətinə varmaq bəndəlik aşırımlarını bir-bir aşmaqdan asılıdır. Bəndəlik prosesində itirdiyini Rəbbinin inayəti ilə Rəbbinin yanında tapar. Elə bir mərtəbəyə çatar ki, Allah-Taala onun gözü, qulağı, əli və ayağı olar. Hər iki - sünnü və şiə alimləri vasitəsilə təsdiqlənmiş məşhur hədisdə buna aydınca işarə olunmuşdur.

Özünü tamamilə Allaha təslim edib qəlb evini ev sahibinə verdikdə Rəbbinin izzətində məhv olduqda, demək vücud ölkəsini Allahına tapşırır və onu vücud ölkəsinin əsil sahibi olan Allah istədiyi kimi o ölkəni idarə etməyə başlar. Belə olan halda onun hər hərəkəti ilahiləşər, gözü ilahiləşdikdə, haqqın gözü ilə baxar, qulağı ilahiləşər, haqq qulağı ilə eşidər.

Nəfsə tabe olmaq Rəbbin sözündən çıxmaq deməkdir və Rəbbin izzətinə daxil olmaq nəfsə qarşı durmaqdır. Bu ikisi bir-birinə qarşı nöqtədədirlər.

Demək Allah yolunun yolçusu özü bəndəlik məqamını dərk etməlidir. Allahın və Rəbbinin izzətinə və özünün zillətinə tam yəqin etməlidir. Bu nə qədər güclü olsa ibadət daha ruhani olar və ibadət daha yerinə düşər. Əgər bəndə Allahın və övliyaların (s.ə.) yardımı ilə bəndəliyin və qulluğun həqiqətini və mənasını dərindən başa düşə bilərsə, ibadətin sirrindən bir şey anlaya bilər. Bütün ibadətlərdə xüsusilə cümlə ibadətlərin başı olan və hətta kamil insan kimi böyük mənziləti olan və ismi-əzəmin özü olan namazda bu iki mövzuda yəni Rəbbin izzəti və qulun Rəbbinin qarşısında zəliliyi mövzusunda sirlər və gizli nüktələr var. Namazın müstəhəb əməli sayılan «Qunut»da və vacib əməllərindən olan «Səcdə»də xüsusi diqqət yetirməli sirlər var ki, bundan sonra onu qeyd edəcəyik.

Bunu da bilmək lazımdır ki, mütləq qulluq, kamalın ən üstün dərəcəsi və insanlığın ən yüksək məqamı sayılır ki, bu məqamı bütövlükdə ancaq Allah məxluqlarının ən kamili olan Həzrət Muhəmməd bilavasitə olaraq və digər övliyalar ilə məalvasitə olaraq qazana bilmişlər və onlardan başqa bu mütləq qulluq və bəndəlik dərəcəsinə heç kəs çata bilməmişdir. Başqaların übudiyyət və qulluq addımları atmaqdır və onların ibadətləri asılı vəziyyətdədir. Ancaq kamil abidlik addımları ilə həqiqi meraca yüksəlmək mümkündür. Buna görə Allah buyurur:

Pakizədir o Allah ki, öz bəndəsini (meraca) yola saldı. Bu bəndəlik məqamı və Rəbbin cəzəbəsidir ki, o pak zati-alini vüsal mənzilinə yüksəldə bildi. «Təşəhhüd»də də Səcdədə hasil olan fanilik məqamından sonra yenə risalət məqamından əvvəl bəndəlik və qulluq məqamına diqqət yetirilir.1

Bəlkə də bunu göstərir ki, peyğəmbərlik məqamı da qulluq və bəndəlik məqamının nəticəsi kimidir. Bunun uzun izahı var ki, bu kitabın vəzifəsindən kənardır.

# MÜBARƏK HƏMD SURƏSİNİN TƏFSİRİ

KULSUM HADI MƏZRƏE

## Mübarək «həmd» surəsinin təfsirindən bir parça

Burada həmd etmək və qiraət ədəbindən müxtəsər məlumat verilibdir.

Bil ki, «Bismillahir-Rəhmanir-Rəhim» ayəsinin «ba» hərfi barədə alimlər arasında fikir ayrılığı vardır. Hər kəs elm və ürfandan bəhrələndiyi səviyyəyə müvafiq olaraq «ba» hərfinin «Bismillaha» mənsubiyyəti barədə rəy söyləmişdir. Belə ki, ərəb ədəbiyyatı alimləri «ba» hərfinin «ibtida» (başlanğıc), yaxud «istianət» (kömək istəmək) mənasını daşıdığını bildiriblər. Məsələn, bəzi rəvayətlərdə «Bismillahın» «ba»-hərfinin «əstəinu»- yəni «kömək istəyirəm» mənasında olduğu söylənilir. Çoxsaylı rəvayətlərdə nəql olunduğu kimi bu məna Ammə (əhli-sünnə - Redaktor) təfəkkürünə uyğundur. Belə ki, müxtəlif hədislərin ümumi məzmunu elə həmən mənaya dəlalət edir. Həzrət İmam Rza (ə)-dan «Bismillahın» mənası barədə olan rəvayətdə deyilir ki, Həzrət (ə) buyurub: «Bismillah, yəni, özümü Allahın nişanələrindən biri nişanəsi ilə nişanlayıram». Yaxud «istianət» - (kömək istəmək) mənası ammənin dərk etdiyindən daha incə bir mənaya malikdir və həmən bu mənada tövhidin sirri daha dəqiqdir.



Bəzi mərifət əhli onu «zühur etdi» mənası ilə bağlayırlar və deyirlər ki: «Varlıq aləmi «Bismillahir-Rəhmanir-Rəhimlə» zahir oldu»1. Bu əqidə, bütün mövcudatı, kainat zərrələrini, qeyb və şəhadət aləmini Allahın «came» (cəm edən) adının, yəni «ismi əzəmin» təcəllisi bilən mərifət, seyr-suluk və irfan əhlinin əqidəsidir. Buna əsasən nişanə və əlamət yaxud böyüklük və əzəmət mənasında olan «ism», «feyzi munbəsit» (haqqın geniş şəkildə aləmdə təcəlli etməsi) və «izafeye işraqiyye» (ilahi varlığın sifətlərlə-isimlərlə aləmdə zühur etməsi)-deyilən, haqqin sonsuz feli təcəllisindən ibarətdir. Çünki, bu əqidəyə əsasən tamam varlıq aləmi, mücərrəd-əqli varlıqlardan tutmuş vücudun son mərtəbələrinə qədər həmən bu feyzin «təyinatı» (zühur edən varlıqları) və bu lütfün «tənəzzülləridirlər» (ilahi sifətlərin-adların mələkut və maddi aləmdə təzahürüdürlər). Qur'ani-şərifdə və Əhli-beyt (ə) hədislərində bu əqidəni təsdiq edən məzmunlar çoxdur. «Üsuli-kafi»-də nəql olunan şərif hədisdə buyurur: «Allah-təala «məşiyyəti» (iradəni) «binəfsina» bilavasitə yaratdı1. Bu şərif hədisi hər kəs öz əqidəsinə əsasən şərh etmişdir, lakin zahirən həqiqətə daha çox uyğun olan şərh budur ki, hədisdə «məşiyyətdən» (yəni, iradədən) murad «feyzi munbəsitdən» (yəni, haqqın aləmdə təcəlli etməsindən) ibarət olan feli məşiyyətdir. «Varlıqlardan» isə murad, bu ilahi lütfün «təyinatı» (təzahür edən varlıqları) və «tənəzzülatı» (Allahın sifətlərinin mələkut və mülk aləmində təzahürü) olan vücudun mərtəbələridir. Beləliklə, şərif hədisin mənası belədir: «Allah-təala, Öz qədim zatının «məşiyyətinin» (iradəsinin) kölgəsi olan, feli məşiyyəti bilavasitə xəlq etdi; qeyb və gözə görünən - şəhadət aləminin digər varlıqlarını isə bu «məşiyyətin» davamı olaraq yaratdı. Seyyid Mühəqqi Damad, böyük təhqiqat və tədqiqat məharətinə malik olmasına baxmayaraq, bu şərif hədisə təəccüb doğuran şərh vermişdir1. Həmçinin mərhum Feyz (Allahın rəhməti olsun ona) bu hədisə həqiqətdən uzaq bir şərh vermişdir2.

Beləliklə, «ism»-ad-bütün varlıq aləminin vücuda gəlməsinin səbəbi olan feli təcəllinin özüdür. Allahın, Peyğəmbərin (s) və ismətli əhli-beytin (ə) dilində «ism»-kəlməsinin «eyni» (obyektiv) varlıqlara aid edilməsinə çox rast gəlirik; belə ki, buyurmuşlar: «Biz «əsmai-husna»-Allahın gözəl adlarıyıq»3. Həmçinin şərif «simat» duasında buyurur: «Filankəsə təcəlli etdiyin adlarının haqqına and verirəm».

Ola bilər, hər surənin «Bismillahi» həmən o surəyə aiddir. Məsələn «Həmd» surəsinin «Bismillahi» həmən «Həmd» surəsinə məxsusdur. Bu da mərifət əhlinin irfani zövqü və əqidəsi ilə uyğundur. Çünki, burada həmd edənlərin həmdi və tərif deyənlərin tərifi də «Allah»-isminin qəyyumiyyəti (qüdrəti və iradəsi) ilə olduğuna işarə olunur. buna əsasən -Şəriətin müstəhəbbatlarından biri olan - bütün sözlərin və əməllərin başlanğıcında duran «təsmiyə», insanın hər bir sözünün və əməlinin Allah adının qəyyumiyyəti ilə həyata keçdiyini xatırlatmaq üçündür. Çünki, vücudun bütün zərrələri «Allah» adının ayrı-ayrı predmetləridir, hətta bir baxımdan «əsmaullahın» özləridirlər. Bu ehtimala əsasən kəsrət (çoxluq)

nəzərində, hər surədə, hər sözdə və hər feldə «Bismillahın» ayrı-ayrı mənaları var. Fəqihlər deyiblər «Bismillah» hər surə üçün müəyyən olunmalıdır və əgər bir surə üçün «Bismillah» deyilsə, başqa surəni o «Bismillah» ilə başlamaq olmaz. Bu şərh fiqhi baxımından da həqiqətdən uzaq deyil və buna əsas verilir. Kəsrətin (çoxluq aləminin) həzrəti ismi əzəm «Allah-da» fani olub, aradan getməsi nəzəriyyəsinə əsasən, bütün «bismillahların» vahid bir mənası vardır.

Həmçinin bu iki görüş vücud mərtəblərində (obyektlər), qeyb və şuhudə mənzillərində də mövcuddur.

Kəsrət aləminə nəzər yetirəndə təəyunat (obyektlər) çox saylı mövcudatlar aləminin müşahidəsində müxtəlif Rəhmaniyyə rəhimiyyə, qəhriyyə və lütfiyyə adlarını görmək olar. Kəsrət aləminin və vücudiyyə nurlarının (varlıqların) muqəddəs feyzin əzəli nurunda məhv olub fənaya getməsində muqəddəs feyzdən (Allahdan) və came ism yəni, ismi əzəmdən savayı bir əsər-əlamət yoxdur. Həmən bu iki nəzər, həmçinin Allahın adları və sifətləri barədə də mövcud-dur. Birinci nəzərə görə - həzrəti vahidiyyət (Allah) adlar və sifətlərin kəsrəti-çoxluğu məqamıdır və bütün kəsəratlar (çoxluqlar) O həzrətdəndir. İkinci nəzərə əsasən həzrət «İsmi əzəmdən» başqa nə bir ism (ad) vardır, nə də bir rəsm. Bu iki nəzər hikmətlə bağlıdır və ona təfəkkür vasitəsilə çatmaq olur. Amma əgər nəzər arifanə olarsa, bu zaman qəlbin qapıları açılır seyr-süluk qədəmləri və qəlbin mənəvi vərdişi ilə Allah-təala feliyyə, ismiyyə və zat təcəllisi ilə, gah kəsrət tərifi, gah da vəhdət tərifi ilə ariflərin qəlblərinə təcəlli edir. Belə təcəllilərə Qur'ani-şərifdə bəzən aydın surətdə işarə olunubdur.

«Rəbbi dağa təcəlli edəndə, onu darmadağın etdi və Musanın ürəyi keçib bayıldı1. Bəzən də, «Ənam» və «Nəcm» surələrinin şərif ayələrində yad edildiyi kimi, İbrahim (ə) və Allahın Rəsulunun (s) müşahidələri şəklində bu təcəllilər barədə söhbət açılır. Həmçinin məsum imamların (ə) rəvayətlərində və dualarında buna çox işarə olu-nur. Xüsusən, sənədi və mətni bütün məzhəblər, arif və avam tərəfindən qəbul edilən əzəmətli «Simati» duasında ətri arifin qəlbini bihuş edən və salikin canına ilahi nəsimi və mehini əsdirən bir çox ali məqamlar və mərifət dolu məzmunlar və mətləblər vardır. Necə ki, buyurur: «Səni and verirəm o vəchinin (surət və camalının) nuruna ki, onunla dağa təcəlli edib, onu yerlə yeksan et-din, Musa da huşunu itirib, üzü üstə yerə yıxıldı. And olsun Turi-Sinaya zahir olan və onun vasitəsi ilə bəndən və elçin olan Musa ibn İmranla danışdığın əzəmətə. Səni and verirəm «Sairdə» nur saçıb, «Faran» dağında zühur etməyinə».

Beləliklə, Allaha doğru gedən salik təsmiyə vaxtı öz qəlbinə anlatmalıdır ki, bütün zahiri və batini varlıqlar, tamam qeyb və şəhadət aləmləri Allahın adlarının (əsmalarının) tərbiyəsi altındadırlar. Əslində Allah adlarının zühuru ilə zahir olur-lar. Varlıq aləminin hərəkətləri və sükutları, tamam varlıq aləminin özü Allahın ismi-Əzəminin qəyyumiyyəti ilə mövcuddur. Bu məqam və ilahi mərhəmət onun qəlbdə möhkəmlənib, bərqərar olanda, bu da ibadətin məqsədi dəvamiyyətli zikr vasitəsilə hasil olduqda, necə ki,

Allah-təala Öz kəlimi Musa ibni İmrana ünsiyyət xəlvətgahının müqəddəs məkanında buyurdu: «Həqiqətən Mənəm, Mən-Allah, Məndən qeyri tanrı yoxdur. Mənə ibadət et və Məni anmaq üçün namaz qıl»1! Özünü yad etməyi, namazın məqsədi təyin etdi. Beləliklə, ciddi xəbərdarlıqdan sonra - arifin qəlbinə mərifətin digər bir yolu açılar və vəhdət aləminə cəzb olunar, nəticədə qəlbi hal dili ilə: «Allahın tərifi Onun Özündəndir» və «Sən Özün Özünü təqdim etdiyin kimisən» «Sənə səndən pənah aparıram»2- deyər.

Bu, «Bismillahın» «ba» hərfinin mənsubiyyətinin sirrindən bir xülasədir və faydalanmaqdan ötrü olan mərifətlərdən bir parıltıdır. Amma «ba» sirləri (ki Ələvi vilayətinin məqamının batinindədir) və Qur'anın cəminin cəmi məqamı olan «ba»-nın altındakı nöqtənin sirləri daha geniş vaxt tələb edir.

Amma «ismin» - həqiqətinin- «qeyb məqamı», qeybilərin qeyb məqamı, «sirr» məqamı, «sirrlərin sirr» məqamı, «zühur» məqamı və «zühurin zühur məqamları vardır. Buna əsasən «ism»- həqqin və müqəddəs zatda fənaya uğramağın əlaməti olduğuna görə, vəhdət üfüqünə daha yaxın və kəsrət aləmindən daha uzaq olan hər bir «ism» «ismiyyətdə» daha kamildir. İsimlərin ən kamili (tamamlı olan), kəsrətlərdən, hətta elmi kəsrətdən belə pak olan isimdir. Bu da həzrəti Zatda «feyzi əqdəs» məqamı ilə əhədi əhədinin qeybi təcəllisidir. Ola bilər şərif ayədə - «iki yay qədəri ya ondan daha yaxın oldu». Məzmunca buna işarə olsun.

Bundan sonra Allahın ismi əzəmi ilə həzrəti vahidiyyətdə təcəllidir. Bundan sonra isə «feyzi müqəddəs» ilə təcəllidir. Bundan sonra kəsrət sifətinin təcəllisi ilə və bu minvalda varlıq aləminin sonunadək uzanıb gedir. «Misbahul hidayədə» və «səhər duasının şərhi» risalələrində bu mövzunu təfsilatlı şəkildə açıqlamışam.

Əllah feyzi-müqəddəsin zühur mqamıdır. Əgər «ismdən» - murad təəyyinati - vücudiyyədirsə (varlıq obyektləri) «Allah» «feyzi müqəddəs kimi zühur edir. Onların hamısın və onlara «Allah» və deyilməsinin zahir və məzhərin birliyinə və ismin müsəmmada (adlandırılmışda) fənaya uğradığına görə heç bir problem törətmir. Mümkündür bu şərif ayədə «Allah səmaların və yerin nurudur» və «Göydə də tanrı olan, yerdə də tanrı olan Odur və O hikmət və elm sahibidir»1. Həmən bu məqama işarədir və bu aidiyyətə şəhadət verilibdir. Əgər murad «feyzi müqəddəslə» təcəlli məqamının «ismidirsə» bu «vahidiyyət» və «əsmaların» adlarının cəmi məqamı başqa sözlə desək «ismi əzəm» məqamı olacaqdır. Bu da ola bilsin digər ehtimallardan daha çox zahir olur. Əgər «ismdən» murad «ismi əzəmət»-dirsə, o zaman «Zat» ya «feyzi əqdəs» məqamı olacaqdır. Aydın olduğu kimi, bu ehtimallara görə «Rəhman» və «Rəhim» məqamı biri-birindən fərqlənəcəkdir.

Mümkündür «Rəhman» və «Rəhim» ism üçün sifət olsunlar və mümkündür «Allah» üçün sifət olsunlar. İsm üçün sifət olmaqları daha münasib görünür, çünki, bunlar Allahın sifətini tərif edirlər və buna görə təkrar olunma ehtimalından uzaqdırlar. Hərçənd «Allahın» sifətləri olduğu surətdə də izahı vardır. Belə ki, təkrar olun-

maqda da bəlağət - incə nüktələr vardır. Əgər «ismin» sifəti bilsək, onda «ismdən» məqsəd eyniyyə ismlər olduğu sübut edilər. Çünki ancaq «Rəhmaniyyə» və «Rəhimiyyə» sifətləri ilə əsmai-eyniyyə vəsf olunur. Beləliklə əgər «ismdən» murad zati ism və cəmi məqama təcəlli olarsa, onda həzrət «İsmullah» üçün sabit olan vahidiyyət məqamına təcəlliyatlarda «Rəhmaniyyət» və «Rəhimiyyət» zati sifətlərdən olacaqdır. Belə olan surətdə, Rəhmani və rəhimi feli rəhmt bunların təzahürlərindən olacaqdır. Amma əgər «ismdən» murad, məşiyyət (iradə) məqamı olan cəmi fel təcəllidirsə, onda «Rəhmaniyyət» və «Rəhimiyyət» felin sifətlərindən olacaqdır. Beləliklə «Rəhmaniyyə rəhməti» vücudun əslidir. Bu bütün varlıq aləmi üçün ümumidir. Lakin haqqın xassə, yəni xüsusi sifətlərindəndir. Çünki, vücudu varlıqlar arasında paylayıb bölüşdürməkdə Allah-təala üçün şərik yoxdur. Digər mövcudatların əlləri «icadi-yaradıcı» (xaliqiyyət qüvvəsi) rəhmətinə (nemətinə) çatmır. «Vücuda Allahdan başqa təsir edici qüvvə yoxdur və varlıq aləmində Allahdan qeyri bir Allah yoxdur».

Amma «Rəhimiyyə» rəhməti ki, həqq yolunun hidayətçilərinin hidayəti onun zərrələridir, səadət əhlinə və ən ali fitrət sahiblərinə məxsusdur. Amma bu ümumi sifətlərdəndir və digər mövcudatların da bundan həzz almaq imkanı və bir payı vardır. Hərçənd bundan əvvəl işarə olundu ki, rəhimiyyə rəhməti də ümumi rəhmətlərdəndir və bədbəxtlərin halına şamil olmamasının səbəbi, bu rəhmətin məhdudiyyətindən deyil, onların öz nöqsanındandır. Buna görə, hidayət və dəvət bütün bəşər ailəsi üçündür, necə ki, Qur'ani-şərif buna dəlalət edir. Həmçinin bir nəzərə görə də, «Rəhimiyyə» rəhməti Allah-təalaya məxsusdur və başqasının onda heç bir iştirakı yoxdur. Şərif rəvayətlərdə nəzər və inam müxtəlifliyinə müvafiq olaraq «Rəhimiyyə» rəhmətini çeşidli surətdə bəyan ediblər. Bəzi yerdə buyurublar: «Rəhman-ümumun sifəti üçün xüsusi isimdir, Rəhim isə, xassın sifəti üçün ümumi isimdir»1. Həmçinin buyurublar: «Bütün insanlar üçün Rəhmandır, möminlər üçün isə Rəhimdir»2. Həmçinin buyurublar: «Ey dünyanın Rəhmanı və axirətin Rəhimi». Buyurublar: «Ey dünya və axirətin Rəhmanı və dünya və axirətin Rəhimi»3.

## İrfani təhqiq

Ədəbiyyatçılar deyiblər: «Rəhman» və «Rəhim» sözünün kökü «Rəhmət» sözüdür və məna etibarı ilə mübaliğə üçündür. Lakin mübaliğəlik sifəti «Rəhman»da «Rəhimdən» daha çoxdur. Məntiqə görə «Rəhimin» «Rəhmandan» qabaq gəlməsini tələb edirdi. Lakin «Rəhman» şəxsi əlamət və ad kimi digər mövcudatlara aidiyyatı olmadığına görə, qabağa salınmışdır. Bəzi alimlər hər ikisini bir mənada və təkrar gəlməsini sırf təkid üçün olduğunu söyləyiblər. İrfani zövqə görə - necə ki, Qur'an da həmçinin bu zövqün ən ali mərtəbəsinə nazil olmuşdur. «Rəhman» «Rəhimdən» qabaq gəlməsini tələb edir. Çünki, Qur'ani-şərif qəlb əhlinin nəzərində ilahi təcəllilərin nazilləsi və Rububiyyətin gözəl adlarının kətbi (yazılı) surətidir. «Rəhman» adı ilahi adların arasında «İsmi Əzəmdən» sonra daha əhatəlidir (Muhitdir) və mərifət əhlinin nəzərində sübut olunub ki, əhatə edən (Muhitə) isimlərdən

müqəddəmdir (əvvəldir). Daha əhatəli olan ismin təcəllisi də müqəddəmdir (daha əvvəldir, qabaqdır). Buna görə Həzrəti-vahidiyyətdə birinci təcəlli, ismi əzəmi olan Allah təcəllisidir. Bundan sonra, «Rəhmaniyyə» məqamı ilə təcəlli tapır. «Rəhimiyyətlə» təcəlli «Rəhmaniyyətlə» təcəllidən sonra gəlir. Həmən qayda ilə zahir olan feli təcəllidə də, ismi əzəm olan və bu görünüşdə zati ismi əzəm olan «məşiyyət» (iradə) məqamı ilə təcəlli, bütün təcəllilərdən müqəddəmdir. Qeyb və şəhadət aləmlərinin bütün varlıqlarını əhatə edən «Rəhmaniyyət» məqamı ilə təcəlli - hansına ki, şərif ayədə işarə olunur: «Mənim Rəhmətim bütün varlıqları əhatə etmişdir»1 - bu təcəlli digər təcəllilərdən müqəddəmdir, necə ki, ona işarə olunur. «Onun Rəhməti qəzəbini qabaqlamışdır».

Beləliklə, «Bismillah» batin və ruhla müvafiq olaraq feli təcəlliyatların surətidir; sirr və sirrin sirri məqamları ilə mıvafiq olaraq əsmaların, əslində zati təcəllilərin surətidir. Bu təcəllilər əvvəl «Allah» məqamı ilə, bundan sonra «Rəhman», bundan sonra isə «Rəhim» məqamı ilə baş verir. İlahi və Rəbbani nizama müvafiq olması üçün ləfzi və kətbi (yazılı) surəti həmən ardıcıllıqla olmalıdır. Amma, mübarək «həmd» surəsində «Rəbbil aləmindən» sonra gələn «Rəhman» və «Rəhim» ola bilsin ki, «Bismillahda» vücudun zühurunu vücudun qeyb pusqularından zahir olmasına işarə etmək üçündür. Ola bilsin şərif surədə qayıdış və batinlər nəzərdə tutulur ki, bu ehtimala irad tutula bilər. Mümkündür, «Rəhmaniyyə» və «Rəhimiyyə» rəhmətinin əhatəsinə işarə etmək üçündür və mümkündür burada başqa bir nüktə vurğulanır. Hər halda, qeyd edilən bu fakt «Bismillahda» öz təsdiqini tapır. Ola bilsin, həmən nüktənin bu həqir bəndənin qəlbində açıqlanması «Rəhimiyyə» rəhmətindəndir. Həmd olsun Allaha, verdiyi nemətlərə görə.





# SADİQ VƏD ƏMƏLİYYATI

SİYASİ İCMAL

**“Sadiq vəd Əməliyyatı”nın xüsusiyyətləri nə idi?**

Baş Mühafizə Qüvvələrinin sözçüsü və ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi deyib: “Promise Sadeq əməliyyatı yerli istehsal silahları ilə həyata keçirilib, Promise Sadeq əməliyyatı təlim deyil, real əməliyyata səhnə olub”.

ISNA-nın məlumatına görə, briqada generalı Ramzan Şərif İslam İnqilabı Keşikçiləri Korpusu və Bəsicdə İdeoloji-Siyasi Həftənin anım mərasimində deyib: “45 ildir ki, Fələstin məsələsi ölkədə əsas məsələ kimi gündəmə gətirilir və bizim ikinci ən böyük yürüşümüzdür. Ölkədə də Qüds günü yürüşü keçirildi.” . Fələstinin İsrail tərəfindən işğalından 80 ilə yaxın vaxt keçir və Amerika və onun müttəfiqləri bu rejimi dəstəkləyiblər.

O, əlavə edib: “Bu güclü əməliyyat keçmişdə dəfələrlə iddia və bəyan edən sionist rejimə qarşı həyata keçirilib ki, biz təhlükəsizik. bölgədəki qala və hamı ərəb ölkələrinin orduları eyni anda bizə hücum etsə, biz meydanda qalib gələrik.

O, “Sionistlərin hərbi, təhlükəsizlik və müdafiəni gücləndirməkdən bir an belə laqeyd qalmadığını” bildirərək dedi: Buna baxmayaraq, sionistlər 7 aya yaxındır ki, Qəzzədə çaş baş qalıblar və elan etdikləri məqsədlərin heç birinə nail olmayıblar. Sionist rejim Qəzzə ilə qarşıdurmada müdafiəsiz və minlərlə bombardman etməklə heç bir yerə çatmayıb.

İslam İnqilabı Keşikçiləri Korpusunun sözçüsü və ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşı Əl-Əqsa tufanı əməliyyatının sionist rejim üçün nəticələrinə toxunaraq dedi: Bu əməliyyatla sionist rejimin əməliyyat, hərbi və müdafiə sahələrində hegemonluğu pozuldu və orada iki atmosfer yarandı . Fələstinlilərə qlobal dəstək dalğası və bu rejimdən ikrah hissi.

O, ölkənin hərbi qüdrətinə toxunaraq dedi: “Müqəddəs müdafiədən sonra biz inqilab liderinin tədbirləri ilə ölkəni gücləndirmək üçün bir an belə əldən vermədik. Müqəddəs müdafiə müstəsna fürsətə çevrilən bir təhlükə idi. 10 ölkə “Həqiqi vəd”in cəza əməliyyatında sionist rejimə kömək etdi və bu əməliyyatdan sonra sionist rejimin dəstəyinə gəlmiş tanınmış ölkələrin müdafiə sistemi üzərində ölkəmizin qələbəsi əldə olundu. Heç bir ölkə bizim bu tədbirdə uğur qazanmağımızı istəmədi, lakin Allah bu hadisənin və əməliyyatın baş tutmasını istədi və biz İran xalqının ürəkdən dəstəyinin şahidi olduq. Bütün insanlar bu milli aksiyanı dəstəklədi və Allah da yardım etdi.

O, vurğulayıb ki, “Qətiyyətlə deyirəm ki, bu gün müqəddəs müdafiə, silahlı qüvvələrin fədakarlığı və inqilabın ali rəhbərinin tədbirləri sayəsində heç kim ölkəmizə hücum etməyə cəsarət edə bilməyəcək mənada təhlükəsiz ölkəyə sahibik. “ O əlavə etdi: Bu gün əllərimiz doludur və bunu düşmən bilir. bu əməliyyat yerli istehsal silahlarla həyata keçirilib. Bu hərbi əməliyyat sürpriz bir hərəkət deyildi və onlar ilk pilotsuz uçan aparatın buraxılmasını gözləyirdilər.

“10 ölkənin müdafiə sahəsində bu rejimə kömək etdiyinə” işarə edən Şərif əlavə edib: Bu əməliyyatdan sonra sionist rejimin dəstəyinə gələn ölkələrin tanınmış müdafiə sistemi üzərində ölkəmizin qələbəsi əldə olundu. .” Heç bir ölkə bizim bu tədbirdə





uğur qazanmağımızı istəmədi, lakin Allah bu hadisənin və əməliyyatın baş tutmasını istədi və biz İran xalqının ürəkdən dəstəyinin şahidi olduq. Sadiq vəd əməliyyatı bir daha şiələrə və İran millətinə izzət və üstünlük bəxş etdi və bütün dünya şiələrinin və azadlıq sevən iksanların qəlbini şad etdi.

İranın İsrailə hücumu və ya Sadiq vəd əməliyyatı 25 aprel 1403-cü il gecə yarısı (13 aprel) İslam İnqilabı Keşikçiləri Korpusu tərəfindən Livan Hizbullahı və Husilərlə koordinasiyada İsrailə və Covlan Təpələrinə qarşı həyata keçirilən pilotsuz raket hücumu idi. Bu hücum İranın Dəməşqdəki konsulluğuna edilən hava hücumuna cavab olaraq kamikadze pilotsuz uçan aparatlardan, qanadlı raketlərdən və ballistik raketlərdən istifadə etməklə həyata keçirilib. Bu hücumlar İran və İsrail arasında proksi müharibəsi başlayandan bəri ilk birbaşa hərbi qarşıdurmadır və bu, Qərbi Asiya regionunda yeni bir çağırış mərhələsinin başlanğıcı idi.

Yaxın Şərqdəki bir neçə ölkə 13 aprel 2024-cü il gecə yarısı İranın İsrailə hücumundan bir neçə saat əvvəl öz hava məkanını bağladı. İran İslam Respublikasının hücumuna 170-ə yaxın pilotsuz təyyarə, 30-dan çox qanadlı raket və 120-dən çox ballistik raket daxil olub. İsrail mərmiləri vurmaq üçün Arrow 3 və Flakhan Dawood sistemlərindən istifadə etdi ABŞ, Böyük Britaniya, Fransa və İordaniya Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələri İran pilotsuz təyyarələrinin vurulmasına kömək etdi . İordaniyaya müraciət edən Fransa radar örtüyü təmin etmək üçün donanmasını yerləşdirdi. İordaniya vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün hava məkanına uçan obyektləri ələ keçirdiyini elan etdi. Amma bunların heç biri yararlı olmayıb əməliyyat uğula keçdi.

Aprelin 14-də əməliyyatdan sonra İran İslam Respublikasının BMT-dəki nümayəndəsi bildirib ki, bu hücumlar bitmiş hesab edilə bilər.

Bu hücum tarixdəki ən böyük pilotsuz təyyarə hücumu idi və 1991-ci ildə İraqın İsrailə raket hücumlarından sonra ikinci dəfə İsrail başqa bir ölkənin ordusu tərəfindən hücuma məruz qaldı.



# SİONİST REJİMİNİN BAŞ NAZİRİ HARALIDIR?

GƏLMƏ MƏTLƏB

Sionist rejiminin rəsmiləri əslində Fələstinli olmayıb dünyanın başqa yerlərindən Fələstinə gəlmədirlər. Həqiqətdə onlar Fələstin torpağında dünyaya gəlməmiş və başqa ölkələrdən gəlib Fələstini işğal etmişlər.

Benyamin Netanyahunun atası Polşanın Varşava şəhərində anadan olmuş. Babası Natan Milikovskinin doğulduğu yer Belarusun Karvo şəhəri olub. Milikovski ailəsi 1299-cu şəmsi (1920.m) ilində, yəni sionist rejimin qurulmasından 28 il əvvəl "Ovişən" gəmisi ilə Fələstinə köçərək Fələstinin ən böyük ərəb şəhərlərindən sayılan Yaffada məskunlaşdır.

Atası Benzion Milikovski yəhudi tarixi üzrə ixtisaslaşıb, babası isə müəllim və xaxam olub. Milikovski ailəsi Sionist Partiyasının təbliğində , Amerika və İngiltərədə yəhudilərin razılaşdırılmasında xüsusi rol oynayıb. Netanyahunun babası Amerikaya bir neçə aylıq səfər edərək orada 700 çıxış edərək sionimin təbliöi ilə məşğul olub.

Fələstində Benzion Milikovski öz adını dəyişdirb Netanyahu adını seçmişdir.Həmin bu adı atası Natan ondan əvvəl özü üçün ikinci və gizli ad seçmişdi.

Qeyd edək ki, bu rejimin digər yüksək səviyyəli liderlərinin doöulduöu yer, İrlandiya, Belarus, İraq, Danimarka, Polşa, Serbiya, Mərakeş, Rumıniya və s. Olmuşdur.



# ŞANLI İMAM(RƏH)

**MARAĞALI BÖYÜK AZƏRBAYCAN ŞAİRİ RƏHMƏTLİK BULUD QARAÇORLU(SƏHƏND)**

Ey qaranlıq gecə də parlaq olan bədr, təmam
Şərəfi- elmu əməl əşcəi ayati- izam
Ayətullahi behəq puştu- pənahi- islam
Ey yazıq kütlələrin rəhbəri ey şanlı İmam
Ey Əlinin xələf oğlu sənə minlərlə səlam

Sənə ruhullah adın verdi şəhid olmuş atan
Nəfəs həqdəndi həqiqtdə də ruhullahsan
Ey qara qəlblərə aydın inam nuru saçan
sənə şayandı bu şovkət bu məqam
Ey yazıq kütlələrin rəhbəri ey şanlı İmam
Ey Əlinin xələf oğlu sənə minlərlə səlam

Sən elin qərnlər ağzında qalan həq sözüsən
Sən qaranlıqlar ara həqqi görən həq gözüsən
həq qolu, həq əli, həq carçısı həqqin özüsən
həq gücuaylə vuruşanmazdı bu iyrənc nizam
Ey yazıq kütlələrin rəhbəri ey şanlı İmam
Ey Əlinin xələf oğlu sənə minlərlə səlam

Sən şəhamətdə Əli xatirəsin dirçəltdin
Dağ təkin sinə gərib həq ələmin yüksəltdin

zülm dağ olsa da dartıb təməlin titrətdin
cövru-üdvanla tiklmişdi gətirməzdi dəvam
Ey yazıq kütlələrin rəhbəri ey şanlı İmam
Ey Əlinin xələf oğlu sənə minlərlə səlam

Əsr firovnuna mosa kimi üsyan elədin
zülmə zalimlərə qarşı vuruş elan elədin
Ax necə qasibi sərgəşteyi dovran elədin
Mərhəba! Hörmətə şayandı bu himmət bu məram
Ey yazıq kütlələrin rəhbəri ey şanlı İmam
Ey Əlinin xələf oğlu sənə minlərlə səlam

Sən elin arxasısan eldən ayırmaz səni həq
Yaxdığın tonqalı yel əssə daha yandıracaq
Sən günşsən işığın əsrı işıqlandıracaq
Mukəbi fəcri fəqət görməyiri əhli inam
Ey yazıq kütlələrin rəhbəri ey şanlı İmam
Ey Əlinin xələf oğlu sənə minlərlə səlam

Sən də «movla» tək inanmaq kanı, iman kanısan
sözlərin həq sözü, əsrin «danışan Quranı»san
həqqə can qurban edən nəslimizin vicdanısan
həq sözü, vəhydi, nə vəsvəsə nə sehri- kəlam

Ey yazıq kütlələrin rəhbəri ey şanlı İmam
Ey Əlinin xələf oğlu sənə minlərlə səlam

Mən «Səhəndəm» əyilənəməz yada tufanlı başım
El bilir haqlı döyüşlərdə keçib çoxlu yaşım
Öpürəm mən səni ey dönməzim, ey cəbhədaşım
Ey yazıq kütlələrin rəhbəri ey şanlı İmam
Ey Əlinin xələf oğlu sənə minlərlə səlam



# شانلی امام (ره)

مراغه لی بؤیوک آذربایجان شاعیری
مرحوم بولود قاراچورلو(سهند)

ای قارانلیق گئجه ده پارلاق اولان بدر تمام
شرف علم و عمل اشجع آیات عظام
آیت‌الله به‌حق پشت و پناه اسلام
ای یازیق کوتله لرین رهبری ای شانلی امام
ای علی نین خلف اوغلو سنه مین لرله سلام

سنه روح الله آدین وئردی شهید اولموش آتان
نفس حقدن دی حقیقتده ده روح الله سان
ای قارا قلب لره آیدین اینام نورو ساچان
سنه شایاندی بو شوکت بو مقام
ای یازیق کوتله لرین رهبری ای شانلی امام
ای علی نین خلف اوغلو سنه مین لرجه سلام

سن ائلین قرنلر آغزیندا قالان حق سؤزوسن
سن قارانلیقلار آرا حقی گؤرن حق گؤزوسن
حق قولو, حق الی, حق جارچیسی حقین اؤزوسن
حق گوجوایله ووروشانمازدی بو ایرنج نظام
ای یازیق کوتله لرین رهبری ای شانلی امام
ای علی نین خلف اوغلو سنه مین لرله سلام

سن شهامتده علی خاطیره سین دیرچلتدین
داغ تکین سینه گلیب حق علمین یوکسلتدین
ظلم داغ اولساادا دارتیب تملین تیتر تدین
جور و عدوانلا تیکیلمیشدی گتیرمزدی دوام
ای یازیق کوتله لرین رهبری ای شانلی امام
ای یازیق کوتله لرین رهبری ای شانلی امام.

عصرفرعونونا موسی کیمی عصیان ائله دین
ظلمه ظالملره قارشی ووروش اعلان ائله دین
آخ نئجه غاصبی سرگشته ی دوران ائله دین
مرحبا! حرمته شایاندی بو همت بو مرام
ای یازیق کوتله لرین رهبری ای شانلی امام
ای یازیق کوتله لرین رهبری ای شانلی امام.

سن ائلین آرخاسی سان ائلدن آییرماز سنی حق
یاخدیغین تونقالی یئل اسسه داها یاندیراجاق
سن گونشسن ایشیغین عصری ایشیقلاندیراجاق
موکب فجری فقط گؤرمه ییری اهلی اینام
ای یازیق کوتله لرین رهبری ای شانلی امام
ای علی نین خلف اوغلو سنه مین لرجه سلام
ای یازیق کوتله لرین رهبری ای شانلی امام.

سنده «مولا» تک ایناناق کانی، ایمان کانی‌سان
سؤزلرین حق سؤزو، عصرون «دانیشان قرآنی»سان
حقّه جان قوربان ائدن نسلیمیزین وجدانی‌سان
حق سؤزو، وحی دی، نه وسوسه، نه سحر کلام
ای یازیق کوتله لرین رهبری ای شانلی امام
ای یازیق کوتله لرین رهبری ای شانلی امام.

من «سهندم» اگیلنمز یادا طوفانلی باشیم
ائل بیلیر حقلی دؤیوشلرده کئچیب چوخلو یاشیم
اؤیورم من سنی ای دؤنمزیم، ای جبهه داشیم
ای علی نین خلف اوغلو سنه مین لرجه سلام
ای یازیق کوتله لرین رهبری ای شانلی امام.



# QƏTRAN TƏBRİZİ

## TƏBRİZİN ŞƏRQDƏ ŞÖHRƏT QAZANAN ŞAİR

**Təbrizin şərqdə şöhrət qazanan şairlrindən biri, saray ədəbiyyatının ilk görkəmli nümayəndəsi Qətran Təbrizidir. Qətran Təbrizi 1012-ci ildə Təbriz yaxınlığındakı Şadabad kəndində anadan olmuşdur. Şairin tam adı əbu mənsur Qətran cili Azərbaycanidir. İlk təhsilini Şadabadda almış, sonra Təbrizdə oxumuşdur.**




o zaman Azərbaycanda bir neçə feodal dövlət qurumu vardı. bunlardan biri də paytaxtı Gəncədə olan Şəddadilər dövləti idi. ərəb xilafətinin çiçəkləndiyi dövrlərdə Gəncə müsəlman aləminin şımalında böyük mədəniyyət mərkəzinə çevrilmişdi. Burada universitetlər, məktəblər, fərdi və ictimai kitabxanalar, rəsədxana və tibb mərkəzləri fəaliyyət göstərirdi. Müsəlman mədəniyyəti qonşu xristiyan dövlətlərinə məhz buradan yayılır. Şərqin bir çox ölkələrindən alimlər, şairlər, memarlar, sənətkarlar gəncəyə axışırdı. Qətran da təhsilini başa vurduqdan sonra buraya gəlir. O, tezliklə Gəncədə Şəddadilərin sarayına dəvət olunur və az bir vaxtda böyük nufuz qazanır. Həmin dövrdə ölkənin başında əbdülhəsən ləşkəri dururdu və təbii ki, Qətran da bir çox şeirlərini ona və onunla əlaqədar baş vermiş hadisələrə həsr edir. bu şeirlərdən çixiş edərək, Qətranın Gəncədə yaşadığı dövrü müəyyənləşdirəmək mümkündür. Şeirlərindən birində Qətran rüvadilər dövlətinin başçısı əbu mənsur və əbdülhəsən ləşkərinin qonağı kimi Gəncəyə gəlişindən danışır. Qətran yaradıcılığını araşdıran alimlərin fikrincə, bu görüş 1035-1040-ci illər arasında baş verə bilərdi. 1042-ci ildə isə şair artıq Təbrizdə şəhərin yarısını yerlə yeksan etmiş dəhştli zəlzələnin şahidi olmuşdu. Deməli, Qətran Təbrizə bu təbii fəlakətdən əvvəl qayıtmışdı. Lakin bir çox tədqiqatçılar Qətranın Gəncəyə zəlzələdən sonra gəldiyini iddia edirlər. Görünür, şairin yenidən Gəncəyə

dönüşünü də istisna etmək olmaz. 1046-ci ildə Qətran Təbrizdə böyük iran şairi və filosofu Nasir Xosrovla görüşür. Nasir Xosrov özünün məşhur «Səfərnamə» əsərində Qətran adlı qüdrətli bir şairlə görüşdüyünü qeyd edir.

Qətran bir müddət Naxçıvanda, yerli hakimlərin saraylarında yaşadıqdan sonra vətəni Təbrizə dönür. Qətran Təbrizi hələ sağlığında ikən istedadlə şair, müdrik filosof və alim kimi bir çox ölkələrdə şöhrət qazanır. Özünün yazdığına görə, onu Xorasanda və İraqda yaxşı tanıyır və sevirdilər.

Qətran «tavusənamə», «qoşnamə», «Vamiq və Əzra» adlı əsərlərin, habelə əsasən qəsidələrdən ibarət iri həcmli divanın müəllfidir.

Orta Asiya şairi Rəşid vətvat yazır ki, o ömrü buyu bircə həqiqi şair tanımışdır-həkim (müdrik) Qətran Təbrizini.

Qətran poeziya ilə gənc yaşlarından məşğul olmağa başlamış və bu sahədə böyük yaradıcılıq uğurları qazanmışdı. Şeir yaradıcılığında əsas yeri dövrün müxtəlif hökmdarlarını tərif edən qəsidələr tütür. Bu əsərlər müasir oxucu və tədqiqatçılar üçün qəsidələrdə mədh olunan qəhrəmanların saraylarında baş verən tarixi hadisələri öyrənmək və anlamaq baxımından çox qiymətlidir. onun təbriz zəlzlsinə həsr olunmuş şeiri Qətrana şöhrət gətirmişdir.



orta əsr mənbələrinə əsaslanan azərbaycan tədqiqatçıları qeyd edirlər ki, Qətran Təbrizi fars leksiküqrafiyasi tarixində fars dilinin ilk izahli lüğətinin yaradıcısı olmuşdur. Bu bardə «lüğəti-fors» («fars lüğəti») müəllifi, şair və tərtibçi Əsdi Tusi «sihahul-fors» müəllifi Məhəmməd İbn Hinduşah Naxçivani və başqaları yazmışlar.

Məşhur İran şairi Nasir Xosrov adını çəkdiyimiz «səfərnamə»sində Qətranın lüğət üzrində iş prosesini belə təsəvvür edir: «Təbrizdə mən Qətran adlı bir şairlə görüşdüm. 0, avazla yaxşı şeir oxuyur, ancaq fars dilini yaxşı bilmirdi. O, dəqiqinin dıvanlarını mənə gətirib, oxudu və anlaşılmayan sözləri izah etmiyimi xahış elədi. sonra mənim izahatlarımı qeydə alıb, öz şeirlərini oxudu.»

orta əsr müəlliflərinin əksər qisəmi bü lüğəti yaradıcısının adı ilə sadəcə «lüğəti-Qətran», yaxud «fərəhngi-Qətran» (hər iki ifadə «Qətranın lüğəti» anlamına gəlir) kimi qeydə alır. sonralar isə bu lüğət «təfasir fi loğatul-fors» («fars dili sözlərinin izahları»), yaxud da qısa şəkildə «təfasir» («izahlar») adlandırırlır.

Qətran Təbrizi fars poeziya tarixində dərin izlər boraxmışdır.

Qətran 1088-ci ildə Təbrizdə dünyasını diyişmiş və Sırxab məhəlləsindəki məşhur şairlər qəbristanlığında dəfn olunmuşdur.





# YAXŞI QONŞULUQ DİPLOMASİYASI ŞƏHİDLƏRİ



# YAXŞI QONŞULUQ DİPLOMASİYASI ŞƏHİDLƏRİ

